**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN MİLLİ KONSERVATORİYASI**

# AZƏRBAYCAN XANƏNDƏLİK SƏNƏTİ TARİXİNDƏ ARİF BABAYEVİN ROLU

**“İxtisas fənninin tədris metodikası” “İfaçılıq sənəti tarixi” və “Xalq musiqi nümunələrinin təhlili” fənnləri üzrə nəzərdə tutulmuş**

**DƏRS VƏSAİTİ**

*Azərbaycan Milli Konservatoriyasının Elmi Şurasının 22 dekabr 2017-ci il 4 saylı iclasında dərs vəsaiti kimi təsdiq edilmişdir (pr. №4).*

**Bakı – 2018**

**Elmi redaktor:** **Hüseynova Lalə Şirməmməd qızı**
*Azərbaycan Milli Konservatoriyasının Elmi işlər üzrə prorektoru, sənətşünasliq üzrə fəlsəfə doktoru, professor*

**Rəyçilər:** **Məmmədova Rəna Azər qızı**
*AMEA-nın müxbir üzvü, sənətşünaslıq üzrə elmlər doktoru, professor, AMEA-nın "Memarlıq və incəsənət" İnstitutunun "İncəsənətin qarşılıqlı əlaqələri" şöbəsinin müdiri*

**Qafarova Zemfira Həsən qızı**
*Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor, Azərbaycan Bəstəkarlar İttifaqının katibi*

**Məmmədov Əlibaba Balaəhməd oğlu**
*Xalq artisti*

**Quliyev Malik Bayram oğlu**
*Azərbaycan Milli Konservatoriyasının Tədris işləri üzrə prorektoru, əməkdar müəllim, sənətşünasliq üzrə fəlsəfə doktoru, professor*

**Verdiyeva S.S., Qulamova J.E.** *Azərbaycan xanəndəlik sənəti tarixində Arif Babayevin rolu. Dərs vəasiti. Bakı, "Ecoprint", 2018, 88 s.*

*"Azərbaycan xanəndəlik sənəti tarixində Arif Babayevin rolu" adlı dərs vəasiti Azərbaycan Milli Konservatoriyasının mövcud tədris proqramına uyğun olaraq xanəndəlik sənətinin inkişafında böyük rolu olan görkəmli xanəndə, xalq artisti, professor Arif Babayevin yaradıcılıq yolunun tədqiqinə həsr olunmuşdur. Dərs vəsaiti əsasən AMK-nın tələbələri üçün nəzərdə tutulsa da, bu əsərdən musiqi təmayüllü digər ali təhsil ocaqlarının müəllimləri və tələbələri, eləcə də ifaçılar faydalana bilərlər.*



*“Arif bizim böyük müğənnimizdir. O, böyük xanəndə Xan Şuşinskinin davamçısıdır...”.*

**Heydər Əliyev**

# GİRİŞ

Azərbaycan musiqi mədəniyyətində xanəndəlik sənətinin xüsusi rolu vardır. Xanəndələr xalqın mənəvi aləminin, zəkasının, arzu-istəyinin ifadəçisi olan xalq musiqisini və muğam sənətini təbliğ etmiş, yaşatmış və qoruyub saxlamışlar. Azərbaycan musiqi mədəniyyətinin inkişafında bir çox görkəmli xanəndələrin adları dərin iz salmışdır. Bu xanəndələr musiqi sənətinin bir sıra janrlarının inkişafında aparıcı qüvvə kimi çıxış etmişlər. Musiqi tarixindən məlumdur ki, xanəndələr mahir ifaçı olmaqla yanaşı, həm də yaradıcı sənətkarlar olub, çox sayda təsnif və rənglərin, lirik xalq mahnılarının, muğamların, zərbli muğamların yaradıcıları olmuşlar.

Dahi bəstəkarımız Üzeyir Hacıbəyli xanəndəlik sənətini xarakterizə edərək yazır: "Peşə və sənət məqamında isə musiqi icrası "ustad"ların işidir; bu ustadlar, qabiliyyət və ləyaqətlərinə görə iki zümrəyə ayrılırlar: biri şəhər və yaxud "məclis" musiqiçiləridir ki, bunlara məlum olduğu üzrə "xanəndə və sazanda" dəstəsi deyilir; o biri zümrə "kənd" və ya "çöl" musiqarlardır ki, onlar da "aşiq" (aşıq) və zurnaçı" dəstəsidir"[1].

Xanəndəlik sənətinin inkişaf etdirilməsində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın həyata keçirdiyi beynəlxalq miqyaslı layihələrin böyük əhəmiyyəti vardır. Bu baxımdan xanəndələrin səsyazılarını əks etdirən CD – disklərin buraxılması, muğam müsabiqələrinin təşkil olunması, respublikanın şəhərlərində və xarici ölkələrdə muğam ifaçılarının qastrol konsertlərinin keçirilməsi diqqətəlayiqdir və xanəndə nəsillərinin yetişməsində, eləcə də muğam sənətinin yaşadılaraq gələcək nəsillərə ötürülməsində xüsusi rol oynayır.

Keçmişin klassik musiqi sərvəti olan muğamlar milli musiqi mədəniyyətimizin əhəmiyyətli bir hissəsini təşkil edir. Xanəndələr və sazəndələrin yaradıcılığında zəngin klassik irsimiz olan muğamlar inkişaf etdirilərək bu gün yüksək nümunələri ilə yaşa-

---

[1]Hacıbəyli Ü.Ə. Bədii və publisistik əsərlər. B.: Şərq-Qərb, 2008, s. 496.

yır. Azərbaycan musiqi sənəti tarixinə çoxlu görkəmli muğam ustaları – ifaçılar daxildir. Onlardan biri də “Şöhrət” və “İstiqlal” ordenli, xalq artisti, professor Arif Babayevdir.

Təqdim olunan dərs vəsaitində biz diqqəti ustad xanəndəmiz Arif Babayevin yaradıcılığına yönəltmişik. Məlum olduğu kimi xanəndəlik sənətinin əsas xüsusiyyətlərindən biri odur ki, xanəndə səslə oxumaq, yəni vokal sənətinin təmsilçisidir və həmişə instrumental ansamblın müşayiəti ilə çıxış edir. Arif Babayevin xalq arasında böyük müvəffəqiyyət qazanmasına səbəb onun yalnız geniş səs diapazonuna malik olması deyil, eyni zamanda Azərbaycan klassik musiqi və mahnı mədəniyyətiylə geniş xalq kütlələrini tanış etməsidir. O, xalq xanəndəliyini yüksək sənət dərəcəsinə çatdırmışdır. Arif Babayev uzun illər xanəndəlik təcrübəsi nəticəsində Azərbaycan milli musiqisini dərindən öyrənmək, ifa və təbliğ etmək yolunda böyük nailiyyətlər əldə etmişdir. Yuxarıda sadalanan amillər milli musiqimizin görkəmli nümayəndələrinin yaradıcılıq irsinin öyrənilməsini, tədqiqat məsələlərini aktual edir. Məhz buna görə də biz dərs vəsaitimizdə ustad sənətkar Arif Babayevin yaradıcılığını tədqiq etməyə çalışmışıq.

Dərs vəsaitində əsas qarşıya qoyulan məqsəd korifey xanəndəmiz Arif Babayevin yaradıcılığının tədqiqi, onun repertuarının, ifaçılıq xüsusiyyətlərinin, eyni zamanda bir bəstəkar kimi ərsəyə gətirdiyi təsnif və mahnılarının təhlil olunaraq oxuculara çatdırılmasıdır.

Sənətkarın yaradıcılığı bu günə qədər geniş tədqiq olunmamışdır. Onun haqqında bir çox mətbu orqanlarda məqalələr yazılsa da, müxtəlif səpkili, sanballı kitablar nəşr olunsa da, yaradıcılığı haqqında musiqişünaslıq baxımından elmi-nəzəri təhlil aparılmamışdır. Biz də öz tədqiqat işimizdə məhz sənətkarın yaradıcılığını elmi-nəzəri baxımdan təhlil etməyi qarşımıza məqsəd qoymuşuq.

Dərs vəsaiti Azərbaycan Mili Konservatoriyasının “Muğam (xanəndə) və “Milli vokal” kafedralarının bakalavr pilləsində tədris olunan “İxtisas fənninin tədris metodikası” və “İfaçılıq sənəti tarixi” fənnləri, eləcə də “Muğamşünas”, “Musiqi nəzəriyyəsi”, “Dirijorluq” ixtisası üzrə magistr pilləsində tədris olunan “Xalq musiqi nümunələrinin təhlili” fənnləri üçün nəzərdə tutulmuşdur.

# ARİF BABAYEVİN YARADICILIQ YOLU

Odlar yurdunun ən gözəl guşələrindən biri, səfalı təbiətə, maddi-mədəni sərvətlərə malik bir məkanı, şeir, sənət ocağı, istedadlar diyarı kimi sorağı Vətənimizin hüdudlarını aşaraq bütün dünyaya səs salmış, qədim tarixə malik Qarabağ torpağı Azərbaycanın bir sıra görkəmli alimlərinin, yazıçı və şairlərinin, mədəniyyət və incəsənət xadimlərinin məskənidir.

Azərbaycan xalqının məişətinə dərindən daxil olmuş, onun həyatı, ruhi aləmi, mənəvi tələbləri ilə sıx bağlanmış muğam sənətinin beşiyi Qarabağdır. Qarabağ Allah vergili bir diyardır. Gözəl təbiəti, keşməkeşli, zəngin tarixi, qüdrətli sənətkarları, qonaqpərvərliyi, sədaqəti, mərdliyi ilə şöhrət qazanmışdır.

Azərbaycanın Qarabağ bölgəsində zəngin ənənəyə malik olan xanəndəlik sənəti şərəfli tarixi inkişaf yolu keçmişdir. Bu sənətin layiqli nümayəndələri olan ustad xanəndələr Azərbaycan muğamlarını, təsnif və mahnılarını şifahi şəkildə nəsildən-nəslə ötürərək müasir dövrümüzədək gətirib çatdırmışlar. Məhz xanəndələr nəsli muğam ustadlarının zəngin irsini qoruyub saxlamaqla yanaşı, həm də ondan bəhrələnmiş və bu xəzinəyə öz yeni töhfələrini bəxş etmişlər. Onların hər biri Azərbaycan milli musiqi mədəniyyətində dərin izlər qoymuşdur. Belə sənətkarlardan biri də Azərbaycan xanəndəlik məktəbinin layiqli davamçısı professor Arif Babayevdir.

Azərbaycan musiqi elminin inkişafı tarixinə nəzər saldıqda Qarabağ xanəndəlik sənətinin musiqimizin inkişafında böyük rol oynadığının, onun nümayəndələrinin musiqi dünyamıza böyük töhfələr verdiyinin, əvəzsiz xidmətləri olduğunun şahidi oluruq. Adları böyük ehtiramla yad edilən bu sənətkarlar ümumən Azərbaycan xanəndəlik sənəti tarixində silinməz iz qoyublar. Qarabağda, xüsusən Şuşada xüsusi musiqi məktəbləri XIX əsrin ortalarından etibarən fəaliyyətə başlamışdır. Bu məktəblərdən əsasən Xarrat Qulunun, Mir Möhsün Nəvvabın məktəbi xüsusi olaraq xanəndəlik sənətinin inkişafına böyük təkan vermişdir. Bu cür məktəblər yaranmamışdan qabaq şifahi şəkildə meydana gələn el havalarını ifa etməklə xalq arasında tanınan xanəndələrdən Yusif,

Həsənçə, Şüküroğlu Kərim kimi xanəndələrin adlarını çəkmək olar. Bu milli yaradıcılığın sistemli şəkildə tədrisi Xarrat Qulu tərəfindən musiqi məktəbinin əsası qoyulandan sonra başladı. Bu məktəbin yetirmələri Qarabağ musiqi tarixində yeni səhifə açdı, nəinki Qarabağda demək olar ki, bütün Azərbaycanda tanınıb, böyük nüfuz sahibi oldular. Onlardan Məşədi İsi, Hacı Hüsü, Əbdülbaqi Zülalov, Malıbəyli Həmid, Keştazlı Haşım, Keçəçioğlu Məhəmməd, Məşədi Məmməd Fərzəliyev, İslam Abdullayev kimi sənətkarların adlarını çəkmək olar. Bu cür sənətkarların davamçıları olan Cabbar Qaryağdıoğlu (1861-1944), Seyid Şuşinski və Xan Şuşinski kimi sənətkarların adları mədəniyyət tariximizə qızıl hərflərlə yazıldı. Azərbaycan musiqisinin inkişafı tarixində böyük musiqişünas alim M.M.Nəvvabın adı xüsusi vuğulanır. O, "Məclisi üns"ü yaradaraq sənətkarların yetişməsinə öz dəyərli töhfəsini vermişdir.

Qarabağ xanəndələrindən söhbət apararkən bir məqamı da vurğulamaq istərdim. XIX əsrin sonunadək Azərbaycan xanəndələri muğamı farsdilli şeirlərlə oxumağa daha çox üstünlük vermişlər. Görkəmli Azərbaycan xanəndəsi Cabbar Qaryağdıoğlunun yaradıcılığında isə anadilli qəzəllərin ifası ön plana keçdi. Onunla başlayaraq, muğamların Azərbaycan dilində ifası Azərbaycanda, eləcə də bütün Güney Qafqazda möhkəm bir ənənəyə çevrildi.

Cabbar Qaryağdıoğlunun yaradıcılıq fəaliyyəti çoxcəhətli olmuşdur. O xalq şənliklərinin, muğam məclislərinin, ilk "Şərq konsert"lərinin fəal iştirakçısı olmaqla yanaşı, həm də səsi qrammofon valına yazılan xanəndə kimi də məşhurlaşmışdır. Bundan əlavə, onun yaratdığı muğam üçlüyü (tarzən Qurban Pirimov və kamançaçı Saşa Oqanezaşvili ilə birgə) bir çox xarici ölkələrdə müvəffəqiyyətlə çıxış edərək milli musiqimizin təbliğində böyük rol oynamış, həmçinin, muğamlarımızın milli opera sənətinin meydana gəlməsində, onların səhnəyə yol tapmasında xüsusi əməyi olmuşdur[2].

[2]Verdiyeva S.S. Azərbaycan xanəndəlik sənətinin inkişafında İslam Rzayevin rolu. Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işi. B.: BMA-nın kitabxanası, 2016, s. 15.

Məlumdur ki, Qarabağ hər zaman muğam ifası üçün səslər yetirmiş, xanəndələr yetişdirmişdir. Əgər tarixə nəzər salsaq, ustad xanəndələrin əksəriyyətinin Qarabağ muğam məktəbinin nümayəndələri olduğunu aydın şəkildə görərik.

Qarabağ xanəndəlik sənətini daha da inkişaf etdirmiş sənətkarlar arasında Cabbar Qaryağdıoğlunun, Seyid Şuşinskinin və Xan Şuşinskinin xələfləri olan Yaqub Məmmədov, Mütəllim Mütəllimov, İslam Rzayev, Sara Qədimova, İldırım Həsənov, Arif Babayev və başqalarının adlarını çəkmək olar. Hər bir xanəndənin məqsədi yeni xanəndələr nəsli yetişdirmək, xanəndəlik sənətinin xalq arasında geniş yayılmasına nail olmaq və Azərbaycan muğamlarını inkişaf etdirmək olmuşdur.

Qarabağ xanəndəlik məktəbinə mənsub olan və bu gün də həmin məktəbin davamçısı sayılan professor Arif Babayevi xüsusi qeyd etmək istərdik. Onun Azərbaycan musiqi mədəniyyəti sahəsində fəaliyyəti çox az zaman ərzində yüksək zirvəyə çatmışdır. Bəllidir ki, bu illər Azərbaycanın ictimai həyatında bir dirçəliş dövrü kimi tarixə düşmüşdür.

Biz də Azərbaycan milli musiqi mədəniyyəti sahəsində böyük uğur əldə edən, nadir istedada, geniş musiqi hafizəsinə və yüksək ifaçılıq mədəniyyətinə malik olan, yeni-yeni gənc ifaçılar nəsli yetişdirən Arif Babayevin fəaliyyətini və yaradıcılığını aşkarlamağı özümüzə borc bildik.

Arif Babayev Qarabağ xanəndəlik məktəbinin ən parlaq nümayəndələrindən biridir. Qarabağ musiqi məktəbinin sadiq, klassik davamçısı, müqəddəs muğamların göz bəbəyi kimi qoruyucusu olan sənətkar öz yaradıcılığında nəinki gözəl xanəndə kimi, həm də bir pedaqoq kimi geniş fəaliyyət göstərən muğam ustadıdır.

Sənətkar 50 ildən artıqdır ki, öz sələflərindən qazandığını və yüksək səhnə mədəniyyətini, ifaçılıq bacarığını öz yetirmələrinə ötürməklə şərəfli müəllimlik borcunu yerinə yetirir.

Arif Babayev XX əsrin 60-cı illərinin əvvəllərindən yaradıcılıq fəaliyyətinə başlayaraq, tez bir zamanda xanəndəlik sənətinin yüksək zirvəsinə çatmışdır. Məlum olduğu kimi, məhz bu illərdə respublikaya rəhbərlik edən Heydər Əliyev bir çox sənət adamlarına,

o cümlədən musiqi xadimlərinə xüsusi diqqət ayırırdı. A.Babayevin xalq musiqisinə, muğam sənətinə, hər bir sənətkara göstərdiyi qayğı, diqqət nəticəsində Azərbaycan milli musiqisi yüksək nailiyyətlər qazanmışdır və hər zaman milli ənənələri qoruyub saxlamışdır. Onun xalq musiqi yaradıcılığına, hər bir xalq sənətkarına verdiyi qiymət, bununla bağlı söylədiyi dəyərli fikirlər zaman keçdikcə öz qiymətini daha da artırmış və inkişaf etdirmişdir.

Bu illər Azərbaycanın ictimai-iqtisadi və mədəni həyatında bir dirçəliş, inkişaf və tərəqqi dövrü olmuş, respublikanın mədəniyyətində və incəsənətində Arif Babayev də öz böyük uğurları ilə xalqın geniş rəğbətini qazanmışdır. O, özünəməxsus avazı, gözəl, məlahətli səsi, bənzərsiz ifa tərzi ilə dinləyicilərin qəlbinə yol tapmışdır. Xanəndənin ifa etdiyi muğamlar, xalq mahnıları, təsniflər və bəstəkar mahnıları, xalqın mənəvi sərvətinə çevrilmiş və ictimaiyyət tərəfindən dövrünün ən uğurlu və perspektivli xanəndəsi kimi qəbul edilmişdir. Arif Babayev sənətdə yalnız özünəməxsus ifaçılıq üslubu, öz yolu olan orijinal, klassik xanəndəlik məktəbi yaratmışdır və bu gün də şifahi ənənəli sənəti yaşadaraq davam etdirir.

Arif İmran oğlu Babayev 1938-ci il fevral ayının 20-də Ağdam şəhəri yaxınlığındakı Sarıhacılı kəndində anadan olmuşdur. Atası İmran kişinin məlahətli səsi var idi, amma heç vaxt məclislərdə oxumazdı. Bu haqda Arif müəllimin dedikləri: “Atamın yaxşı səsi olub. Düzü bu haqda hamı danışsa da, mən onun oxuduğunu eşitməmişdim. İnsanlar danışdıqca, məndə atamın səsinə qulaq asmağa daha çox həvəs yaranırdı. Bir dəfə təsadüfən Ağdamdakı həyətimizdə atamın “Segah” oxuduğunu eşitdim. Gizlincə sona qədər onu dinlədim. Həmin gün əmin oldum ki, deyilənlərin əsası var. Həm də səsimin mənə həqiqətən atamdan keçdiyini dəqiqləşdirdim”[3].

İmran kişi 1985-ci ildə dünyasını dəyişmişdir. Anası Ruqiyyə xanım isə evdar qadın olub. Dörd oğul, iki qız böyüdüb. O, dünyasını daha tez – 1964-cü ildə dəyişib. Arif yeddiillik məktəbi

[3]Fərzəliyeva Ü. Arif Babayev:“Savadlı həkimlər cəmiyyət üçün ən sevimli insanlardır”. “Tibb” qəzeti, 31 yanvar 2012, s.13.

qonşu Əhmədavar kəndində bitirib. Orta təhsili isə Ağdamdakı 5 nömrəli orta məktəbdə alıb. Hələ məktəb illərində dərnəkdə, müxtəlif müsabiqələrdə, bayramlarda, tamaşalarda, təntənəli tədbirlərin musiqi hissələrində oxuyurdu. O, nəğmə dərslərində gözəl oxuması ilə sinif yoldaşlarını və müəllimlərini heyrətləndirirdi. Kiçik yaşlarından Ağdam şəhər pionerlər evinin bədii özfəaliyyət kollektivinin fəal üzvlərindən olan istedadlı gənc toylu-büsatlı mühitdə böyüyür, el xanəndələrinin oxumalarına diqqət kəsilir, onlardan öyrənirdi. Seyidli Bəylər, Şelli Məhəmməd, Şuşalı Bahadur, Ağdamlı Nuğay kimi xanəndələr onun ilk müəllimləri olublar. Əlbəttə, belə bir musiqili-mədəni mühitdə böyüyən Arifin xanəndəliyə meyli heç də təsadüfi deyildi. Belə sənətkarların qarşısında çıxış etmək böyük bir məsuliyyət idi. İlham Rəhimli Arif Babayevin ömür yoluna həsr etdiyi "Segah yanğısı" kitabında qeyd edir ki, "Qədim Qarabağın ulu şənliklərindən olan Sarıhacılı oymağında toy-düyün həmişə təm-təraqlı keçib. Toyların əksəriyyətini yerli xanəndələrdən Şelli Məhəmmməd, Bahadur dayı və Bəylər kişi aparırdı. Hərdən muğam sənətimizin nəhəngləri – Xan Şuşinskinin və Zülfi Adıgözəlovun da güzarları bu yerlərə düşərdi. Onlar məclisdə öz dəstələri ilə çalıb-çağırardılar"[4].

Atası Arifi hüquqşünas görmək istəyirdi və o, atasının istəyinə əməl edərək Bakıya gəlib Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə qəbul olur. Lakin musiqiyə olan həvəs bu təhsili yarımçıq qoyur və sonralar onu istədiyi sənət üzrə ali təhsil almağa sövq edir. 1958-1960-cı illərdə Arif Babayev hərbi xidmətdə olmuş, qayıtdıqdan sonra – 1960-62-ci illərdə S.Vurğun adına Ağdam Mədəniyyət Evinin nəzdində fəaliyyət göstərən "Şur" xalq çalğı alətləri ansamblında çalışmışdır. Qeyd edək ki, Azərbaycanda musiqi mədəniyyətinin inkişafında, muğam sənəti və milli ifaçılıq tarixində, püxtələşmiş kamil xanəndələrin yetişməsində Ağdamın "Şur" ansamblı böyük rol oynamış, bu sənətdə öz məktəbini yaratmış, neçə-neçə görkəmli xanəndələrin pərvazlandığı beşik olmuşdur.

[4]Rəhimli İ.Ə. Segah yanğısı. B.: İşıq, 1991, 156 s. (səh.17)

“Şur” xalq çalğı alətləri ansamblı 1952-ci ildə yaradılıb. Ansambla uzun illər tarzən Xosrov Fərəcov rəhbərlik etmişdir. Məhz onun böyük əməyi sayəsində musiqi ansamblı peşəkar səviyyəyə gəlib çatmışdır. “Ötən əsrin 60-80-ci illərində “Şur”un şöhrəti respublikamızın sərhədlərini keçmişdi. SSRİ məkanının elə bir şəhəri tapılmazdı ki, “Şur” orada da konsert proqramı ilə çıxış etməsin. İttifaq miqyasında keçirilən festivallarda “Şur” 47 qızıl medal qazanmışdı. Moskvanın Qurultaylar Sarayında, Sütunlu salonda, eləcə də bu şəhərdə keçirilən beynəlxalq folklor festivalında, Azərbaycan günlərində “Şur”un möhtəşəm çıxışları haqqında indi də danışılır”[5].

Özünəməxsus keyfiyyətləri ilə seçilən “Şur” xalq çalğı alətləri ansamblı öz-özlüyündə bir muğam məktəbi olmuş, muğam sənətinin, milli ifaçılıq tarixinin inkişafında mühüm xidmətləri ilə tanınır. Ansamblın repertuarı çox geniş olmuşdur. Demək olar ki, bütün klassik muğamlar ansamblın xanəndə və sazəndələri tərəfindən ifa edilmişdir. “Rast”, “Şur”, “Mahur-hindi”, “Segah”, “Hümayun”,“Şüştər”, “Bayatı-Şiraz” muğam dəstgahları, “Qatar” muğamı, “Heyratı”, “Qarabağ şikəstəsi” zərbli muğamları onların ifalarında öz məzmununa, rəng və təsniflər isə rəngarəngliyinə görə fərqlənmişdir.

Bu ansambldan pərvazlanan ifaçılar sonralar Azərbaycan musiqi mədəniyyətinə böyük şöhrət gətirdilər. Onların fəaliyyəti genişlənsə də, başqa-başqa yerlərdə yaşasalar da, həmişə bu ansamblla bağlı günləri böyük məhəbbət və ehtiramla xatırlayırlar. Belə məşhur xanədələrimizdən – Əbülfət Əliyev, Qaraxan Behbudov, Bakir Haşımov, Aydın Məmmədov, Şahmalı Kürdoğlu, Sədi Məmmədov, Paşa Əsədov, Səxavət Məmmədov, Qədir Rüstəmov və onlarla başqaları “Şur”un yetirmələridir. Bu yetirmələrdən biri də haqqında söhbət açdığımız görkəmli xanəndəmiz Arif Babayevdir.

Sənətkar bu ansambl haqda belə deyir: “Şur”! Bu təkcə muğamlarımızdan birinin adı kimi deyil, həm də muğam dünyasına

[5]Abbasoğlu B. (Hətəmli). Muğam çeşməsi. Mingəçevir, 2013, 288 səh. (səh.4)

ağuşundan pərvazlandığım bir ansamblın adı kimi mənim üçün nə qədər əziz, nə qədər doğma və müqəddəsdir. Mənim Azərbaycan muğamına, eləcə də musiqisinə bu dərəcədə vurğunluğum, məhəbbətim, doğmalığım, yaxınlığımın sirrinin kökü bu ansamblla bağlıdır. Muğam sənətində qazandığım uğurların bünövrəsi bu ansamblda qoyulmuşdur. Fəth etdiyim zirvələrə gedən yol "Şur"dan başlanmışdır. Mənim həyatımın bir hissəsi bu musiqi ocağı ilə bağlıdır. İndi "Şur"un adı gələndə, vallah, ürəyim titrəyir. Yeniyetməlik çağlarıma qayıdıram. Allahıma şükür edirəm ki, soydaşlarımız kimi yurdundan didərgin düşən ansambl bütün ağrı-acılara üstün gələrək yenidən ayaqdadır. Arzum budur ki, torpaqlarımız işğaldan azad edilsin, "Şur" da Ağdama qayıtsın[6].

Fitri istedada malik olan xanənədənin məlahətli səsi gənc yaşlarında Ağdam şəhərindən başqa, bütün Qarabağ bölgəsində yayılmış və tanınmışdır.

Xanəndənin ilk yaradıcılıq fəaliyyəti Ağdam rayonunda yaşadığı illərə təsadüf edir. Ağdam Dram Teatrının rejissoru, əməkdar artist Heydər Şəmizadə onu teatra dəvət etmişdir və həmin illərdə "Leyli və Məcnun" və "Əsli və Kərəm" operalarının baş rolları xanəndəyə həvalə edilmişdir. Teatrda iki il çalışdıqdan sonra o, təhsilini davam etdirmək üçün Bakı şəhərinə üz tutmuşdur.

Arif Babayev Bakıya gəldiyi qısa bir vaxt ərzində Seyid Şuşinski ilə tanış olur və ilk xanəndəlik təhsilini onun sinfindən başlayır. Ustad xanəndə Seyid Şuşinskinin sinfində oxumaq, bu sənətkardan muğamın incəliklərini öyrənmək hər bir gənc xanəndə üçün böyük şərəf idi. O, dərs prosesində hər bir muğamı ayrıca təhlil etməklə yanaşı, xanəndənin səsindən istifadə üsullarını da açıqlayırdı.

Arif Babayev demək olar ki, öz yaradıcılığının formalaşmasında, inkişafında Azərbaycan xanəndəlik sənətinin ən qüdrətli nümayəndələrindən biri olan Seyid Şuşinski ilə yanaşı, Xan Şuşinski, Zülfi Adıgözəlov kimi sənətkarların yaradıcılığından da faydalanmışdır. Xanəndə ustadlarından əldə etdiyi bütün tövsiyələri ba-

---

[6]Abbasoğlu B. Muğam çeşməsi. Mingəçevir, 2013, 288 səh. (səh. 4)

cardıqca mənimsəmiş və öz yaradıcılığında tətbiq etməyə müvəffəq olmuşdur.

Arif Babayev Xan Şuşinskini də özünün müəllimi hesab edir. Xan əmi öz növbəsində Arifin Bakıya ilk gəlişindən onun səsinə, nəfəsinə, boğaz-ləhcəsinə, oxu vərdişinə ehtiram və rəğbətlə yanaşmış, qayğısını əsirgəməmişdir[7].

Arif Babayev oxuduğu mahnı və muğamların bütün zərifliyi, incəliyi ilə dinləyiciyə çatdırması üçün öz üzərində müntəzəm çalışır, ustad xanəndələrin təcrübəsindən bacarıqla istifadə edir.

1962-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun "Musiqili teatr aktyorluğu" fakültəsinə Azərbaycan SSR xalq artisti Soltan Dadaşovun sinfinə daxil olmuşdur. Muğam dərslərini Qulu Əsgərovdan alan Arifin səsi hələ tələbə ikən hamının diqqətini çəkir və o, müxtəlif konsert proqramlarında iştirak edirdi. Təhsilini davam etdirməklə yanaşı, 1964-1966-cı illərdə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında fəaliyyət göstərmiş, solist kimi konsert-ifaçılıq fəaliyyətini genişləndirmişdir. İlk qastrol səfərinə Respublikanın xalq artisti Sara Qədimova ilə çıxmışdır.

Arif Babayevin məlahətli səsi, ifası, səhnəyə uyğun yaraşığı Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının dirijoru, Xalq artisti Əfrasiyab Bədəlbəylinin nəzərindən qaçmır. Böyük bəstəkar, musiqişünas alim həmişə muğam operaların inkişafı və yaşaması üçün əlindən gələni edirdi. Bunun üçün daim gözəl səslər, gözəl ifaçılar axtarışında idi. Bu səbəbdən Əfrasiyab Bədəlbəyli gənc Arif Babayevi 1966-cı ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrına işləməyə dəvət etmişdir. 1966-cı ildən 2006-cı ilə kimi teatrın solisti olan sənətkar bu qocaman sənət məbədində püxtələşərək bir-birindən maraqlı, yaddaqalan səhnə obrazları yaratmışdır.

Arif Babayevin bir çox xanəndələrdən üstünlüyü onun gözəl səsə, olduqca yumşaq və eyni zamanda muğam sənətinə yatan incə tembrli səsə malik olmasıdır. Geniş səs diapazonu ona bütün

[7]Rəhimli İ.Ə. Segah yanğısı. B.: İşıq, 1991, 156 s. (səh.18)

muğamların mayəsini və zillərini oxumağa şərait yaradır. Onun özünəxas nəfəsində, bənzərsiz xallarında, zəngulələrində heç bir yad nəfəs və yad musiqi təsiri hiss olunmur. Oxuduğu muğamlarda səs gəzişmələri dinləyicini vəcdə gətirir. Arif müəllimin səsinin şirinliyi, boğaz ləhcəsinin məlahəti, yanğılı zəngulələri olduqca təsirlidir. Hər şeydən əvvəl sənətkarın səsi təmizdir və dinləyiciləri olduqca valeh edir.

Arif Babayev sənətinin əsası – onun özünəməxsusluğu və bənzərsizliyidir. Muğam ustası müqəddəs muğam aləmini dinləyicinin ürəyinə aparır. O, muğamı ifa edəndə sanki keçmişlə bu günün arasında bir "körpü" salır. Bu, Arif Babayevin səs "körpü"südür.

Səsinin varlığında hansı duyğu – Vətən sevgisi, ana məhəbbəti, eşq, səadət, nisgil, torpaq həsrəti..., bir sözlə, nədən oxuyursa-oxusun, oxuduğunu yaşayır və səs dünyasının mənzərəsini dinləyici sanki, həm görüb-duyur, həm də öz yaddaşına həkk edir.

Ümumiyyətlə, Qarabağın hər ovuc torpağı bir muğam sədasıdır. Qarabağın saf havası, quşqonmaz qayaları, dərələrdə "Cəngi" kimi əks-səda verən şəlalələri, Daşaltının, Qarqarın, Tərtərin, Kürün coşqun suları ürəyində qərar tutmaqla yanaşı, yaralı torpaqların dərdi də onun qəlbinin ağrısına çevrilib. O, xalqına qırılmaz tellərlə bağlı bir sənətkardır. Xalqın sevincini öz sevinci, dərdini öz dərdi bilir.

Gözəl sənətkarımız milli musiqimizi təhrif etmədən, ölməz ustadların oxuduğu kimi özünəməxsus tərzdə dərin duyur və məharətlə bizə çatdırır.

Arif Babayev həmçinin xalq mahnılarını, eləcə də bəstəkar mahnılarını da özünəməxsus bir tərzdə ifa edir. "Apardı sellər Saranı", "Yaxan düymələ", "Süsən sünbül", "Yar bizə qonaq gələcək" onun ifasında çox orijinal səslənir. "Qarabağ şikəstəsi" zərbli muğamını ifa edərkən Arif Babayev Qarabağ muğam məktəbinin əsasında köklənir.

Xalq mahnıları ilə bərabər, qeyd etdiyimiz kimi, Arif Babayev həmçinin Azərbaycan bəstəkarlarının bir sıra mahnılarının da gözəl ifaçısıdır. İstər xalq mahnılarının, eləcə də bəstəkarlarımızdan Cahangir Cahangirovun, Süleyman Ələsgərovun, Ramiz Mustafa-

yevin, Şəfiqə Axundovanın, Ramiz Mirişlinin, Nəriman Məmmədovun, Sevda İbrahimovanın mahnılarını oxuyarkən onun şirin səsinin muğamlarımız üzərində kökləndiyi aydın hiss olunur.

Arif Babayev mahir muğam ifaçısı kimi təkcə Vətəni Azərbaycanda deyil, bütün Şərqdə və türk dünyasında şöhrət qazanmışdır. Onun ifa etdiyi "Şur", "Rast", "Bayatı-Şiraz", "Çahargah", "Mirzə Hüseyn Segahı", "Zabul-Segah", "Segah" muğamları, xalq mahnıları, təsniflər, bəstəkar mahnıları artıq musiqi mədəniyyətimizin xəzinəsinə daxil olmuşdur.

Sənətkar 1988-ci ildə Respublikada ilk dəfə olaraq yaradılan "Muğam teatrı"nda da fəaliyyət göstərmişdir. İyirmi ilə yaxın "Muğam teatrı"nın bədii rəhbəri olan İslam Rzayev Arif Babayevlə birlikdə bu sahədə gərgin əmək sərf edərək Azərbaycan muğamının əbədiləşdirilməsi yolunda əzmlə çalışmışlar. "Muğam teatrı"nın yarandığı vaxtdan qarşısında duran əsas vəzifələrdən biri yeddi Azərbaycan muğamının tamaşasını hazırlamaqdan ibarət idi. Bunun üçün istedadlı xanəndələrin, mahir ifaçıların toplanması, qədim tarixə malik olan muğamlarımıza uyğun səhnə forması, poeziyanın bəzəyi olan qəzəllərimizin səslənməsi və bütün bunların ahəngdar bir şəkildə, teatrlaşdırılmış üslubda tamaşaçılara təqdim olunması istiqamətində gərgin iş aparılmışdır.

Xanəndə əsasən klassik irsdən şeirlər, qəzəllər seçib, muğamlara cəlb edir. Sözsüz ki, bədii material muğamın ahənginə uyğun olmalıdır. Bu tələblərə əməl edilməyəndə musiqi cümlələri misralarla uyuşmur, ifa nöqsanlı olur. Belə məsələlərdə xanəndə həssas və diqqətlidir. Buna görə də onun ifası cazibədar, tələffüzü aydın, səs-söz deyimi, səs həmləsi ölçülü-mizanlıdır. Odur ki, Arif Babayevin yaradıcılığında Füzuli, Şah İsmayıl Xətai, Vaqif, Seyid Əzim, Nəbati, Xurşid Banu Natəvan, Səməd Vurğun, Əliağa Vahid kimi şairlərin söz xəzinəsindən yerli-yerində istifadə etmişdir.

İlk muğam tamaşası "Şur"la bağlı olmuşdur. Dəstgahın ifası üçün görkəmli muğam biliciləri – Zeynəb Xanlarova, Arif Babayev, Alim Qasımov, Qədir Rüstəmov, İslam Rzayev özü və başqaları iştirak etmişdir. Şöbələrinin sayına və məzmununa görə özünəməxsusluğu ilə seçilən Azərbaycan "Şur" muğamının tama-

şası yeni sənət ocağının məramını geniş əks etdirirdi.

Arif Babayev Misirdə (1967), Danimarkada (1974, 1989), Əlcəzairdə (1975), Türkiyədə, İranda, Əfqanıstanda, Tunisdə, Fransada, İsveçrədə, İtaliyada (1985), Finlandiyada (1986), ABŞ-da (1988), Livanda və neçə-neçə xarici ölkələrdə muğamlarımızın, xalq nəğmələrimizin, bəstəkar mahnılarının təbliğatçısı olmuşdur. Dünyanın harasında olursa-olsun Arif Babayevin ifasını hər zaman böyük alqışlarla qarşılayıblar. Görünür ki, Arif Babayev uzaq ölkələrdə də geniş tamaşaçı və dinləyici auditoriyası qazana bilmişdir. Hətta onun ifası və səsinin geniş diapazonu əcnəbi dinləyiciləri, musiqişünasları dəfələrlə heyrətləndirmişdir. Xaricdə dərc olunan qəzet və jurnallarda onun haqqında ən xoş sözlər, fikirlər yazıblar[8].

Arif Babayev həm də pedaqoq-xanəndədir. Bizim muğam ifaçılığı tarixində gözəl muğam ifaçıları çox olub, lakin onların hamısı müəllimlik etməyib. Arif Babayevin daha bir özəlliyi də məhz onun tələbələr yetişdirməsindədir. Əlbəttə, müəllimlik də xanənədəlik qədər ağır peşədir desək, yanılmarıq.

1981-ci ildən pedaqoji fəaliyyətlə məşğul olan sənətkar ilk dəfə Bülbül adına orta ixtisas musiqi məktəbində işə başlamışdır. 1984-cü ildə isə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında yeni açılan muğam sinfində ilk müəllimlərdən biri olaraq dərs demişdir. Azərbaycanda ilk dəfə muğam ifaçıları arasında professor elmi adına Arif Babayev layiq görülmüşdür. Sənətkar hazırda Azərbaycan Milli Konservatoriyasında "Muğam (xanəndə)" kafedrasının müdiri vəzifəsində çalışır. Artıq Arif Babayev sənətinin davamçıları, varisləri vardır. Onun yetirmələrinin çoxu bu gün xalq artisti, əməkdar artistlərdir. Xalq artistlərindən Nəzakət Teymurova, Aygün Bayramova, əməkdar artistlərdən – Gülüstan Əliyeva, Könül Xasıyeva, Fehruz Səxavət, Cabir Abdullayev, Səbuhi İbayev, populyar müğənni Könül Kərimova, tədqiqatçı xanəndə Əhsən Əhmədov, gənc ifaçılardan Sevinc Sa-

---

[8]Musazadə R.M., Abdullayev A.S., Dadaşov F.Ə. "İnstrumental muğam tədrisi", Bakı, MBM, 2014, 220 s. (səh.193)

rıyeva, Qoçaq Əsgərov, Elnur Zeynalov, İlkin Əhmədov, Mustafa Mustafayev, Miryusif Mirzəzadə, Nasir Ətapur, Mirələm Mirələmov və b. məhz Arif Babayevin yetirmələridir.

Arif Babayev müəllimliklə yanaşı, maraqlı metodik üsullardan necə istifadə yolları haqda tədris proqramları, metodik tövsiyyələr də yazmışdır. İlk əsəri 1994-cü ildə nəşr olunmuş "Rast dəstgahı və onun xanəndə yaradıcılığında ifasına dair metodik tövsiyyələr" olmuşdur. 2005-ci ildə bakalavr təhsili üçün "Muğam (xanəndə)" fənni üzrə proqramın, 2010-cu ildə AMK-nın"Muğam (xanəndə)" kafedrasında "Muğam üçlüyü" fənnindən bakalavr hazırlığı üçün proqramın, 2014-cü ildə "Xanəndə ifaçılığı" fənni üzrə proqramın da müəllifidir.

Milli muğam məktəbinin gözəl ənənələrini ləyaqətlə davam etdirən Arif Babayevin yaradıcılığında muğam, təsnif və xalq mahnıları əsas yerlərdən birini tutur. Tarixən xalq mahnılarının, xüsusilə təsniflərin yaradıcısı və ilk ifaçısı elə xanəndələr, musiqi alətləri ifaçıları olmuşlar. Təsadüfi deyil ki, Cabbar Qaryağdıoğlu, Xan Şuşinski, Seyid Şuşinski, Novruzlu İsgəndər, Əbülfət Əliyev, Qulu Əsgərov, Əlibaba Məmmədov, Habil Əliyev, Hacıbaba Hüseynov və b. görkəmli sənət adamlarının xalq ruhunda bəstələdikləri mahnı və təsniflər bu gün də dillər əzbəridir. Arif Babayev 30-dan çox mahnı və təsnifin müəllifidir. Onun ürəkləri riqqətə gətirən "Yanıram eşq oduna", "Qara telin incə belə", "Eşqin göylərində", "Samovarın xəkəsi", "Ey mənim məhəbbətim", "Gəlgəl", "Çən düşər", "Badamı gözlərin" və s. mahnı və təsnifləri yaddaşlara xalq yaradıcılığı kimi həkk olunmuşdur.

Azərbaycan Milli Konservatoriyasının tədris işləri üzrə prorektoru, əməkdar müəllim, professor Malik Quliyev və əməkdar incəsənət xadimi, bəstəkar Faiq Nağıyev Arif Babayevin mahnı və təsniflərini həm səs, həm də ansambl üçün nota köçürmüşlər. "Mahnı və təsniflər"dən ibarət bu ilk dərs vəsaitində xanəndənin 10 mahnısı toplanmışdır.

Arif Babayev həmçinin böyük ictimai xadimdir. Respublikanın mədəni həyatında fəal iştirak edir. O, 2005, 2007, 2011, 2013, 2015-ci illərdə Azərbaycan Respublikasının Birinci vitse-prezi-

denti, Heydər Əliyev Fondunun rəhbəri,YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyevanın şəxsi təşəbbüsü ilə keçirilən, bütün dünya azərbaycanlılarının, Yaxın Şərqin sevə-sevə izlədiyi Beynəlxalq muğam müsabiqələrində ədalətli bir münsif kimi böyük hörmət qazanmışdır. Hər il ölkəmizdə keçirilən Respublika müsabiqəsinin daimi münsif heyətinin bir üzvi olaraq neçə-neçə istedadlı gənclərə dəstək olmuşdur.

Xalqımız Arif Babayevi həmişə qızğın məhəbbətlə sevmiş, ona hər zaman hörmət və ehtiram göstərmişdir. Onun Azərbaycan musiqisinin inkişafına və təbliğinə göstərdiyi xidmətləri Ulu Öndər Heydər Əliyevin də daima diqqət mərkəzində olmuşdur. Xanəndənin şərəfli və məsuliyyətli əməyi dövlət başçısı tərəfindən yüksək qiymətləndirilmişdir. O, Azərbaycan muğam sənətinin inkişafındakı böyük xidmətlərinə görə 1975-ci il aprelin 11-də Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif olunub. 1978-ci ildə əməkdar artist, 1989-cu ildə isə xalq artisti fəxri adlarına layiq görülüb. Xanəndə 1988-ci ildə xalq artisti, 1998-ci ildə “Şöhrət” və 2008-ci ildə “İstiqlal” ordenləri ilə təltifləndirilmişdir. A.Babayev 2002-ci ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsüdür.

Dövlətimizin göstərdiyi qayğıya əsasən muğam ustasının 70 illik yubileyi ilə əlaqədar Heydər Əliyev Fondunun təqdimatıyla xanəndənin ifasında xalq mahnıları, təsnif və muğamlardan ibarət 4 ədəd kompakt disk buraxılıb, “Arif Babayev – 70” kitabı Azərbaycan və ingilis dillərində nəşr edilib. 2010-cu ildə Heydər Əliyev Fondu tərəfindən xanəndəyə “Qızıl çinar” Beynəlxalq mükafatı verilib[9].

Arif Babayev yaradıcılığına maraq günü-gündən daha da artır. Sənətkarın mahnı və təsnifləri ali və orta ixtisas musiqi məktəblərinin tədris proqramına daxil edilib. Onun haqqında monoqrafiyalar, musiqişünaslar tərəfindən diplom işləri, dissertasiyalar yazılıb.

Onu da qeyd edək ki, 2009-cu ildə “Təhsil” nəşriyyatında işıq

[9]Ağayev Yusif. Arif dünyası.“Mədəniyyət” qəzeti, 20 fevral 2013, s.11

üzü görmüş “QARABAĞ- real tarix – faktlar – sənədlər” kitabında Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın tarixi yığcam şəkildə şərh olunur. Müəlliflər – Eldar Mahmudov, Ataxan Paşayev, Fərhad Vahabov, Bəhruz Axundov ilk mənbələrə əsaslanaraq əsərdə ən qədim zamanlardan yaşadığımız günlərədək Qarabağın tarixini bütöv halda əks etdirmişlər. Eyni zamanda Qarabağın görkəmli şair, yazıçı və ədəbiyyatşünasları bölümündə Bülbül, Rəşid Behbudov, Xan Şuşinski, Seyid Şuşinski kimi korifey sənətkarlarla bərabər, Arif Babayevin də adı və şəkli dərc olunmuşdur.

İstər alim, istər sənətkar, istərsə də həyata gələn hər bir şəxs özündən sonra bir iz buraxır. Arif Babayev də incəsənətimizdə, xüsusən muğam sənəti tariximizdə böyük iz buraxan sənətkarlardan biridir. Əminik ki, gələcək nəsillər bu izə hörmətlə yanaşacaq və ondan bol-bol bəhrələnəcəklər.

Beləliklə, çağdaş mədəniyyətimizin görkəmli nümayəndəsi, milli musiqimizin, xalq mahnı və muğamlarımızın mahir ifaçısı, ustad sənətkar, professor Arif Babayev ecazkar səsi, pedaqoji təcrübəsi ilə milli mədəniyyətimizin inkişafı və təbliği istiqamətində önəmli fəaliyyətini bu gün də sevə-sevə davam etdirir.

# ARİF BABAYEVİN OPERA FƏALİYYƏTİ

Səhnə mədəniyyəti həm xanəndə, həm də artist üçün əsas amillərdən biridir. Arif müəllim öz səhnə mədəniyyətilə də seçilir. Bu, onun xasiyyətində, hərəkətində təbii xarakter daşıyır. Arif Babayev xoşbəxt sənətkardır, çünki tale ondan heç nəyi əsirgəmiyib. Yaraşıqlı, boy-buxunlu, cüssəli – bu da səhnə üçün çox vacib olan amillərdəndir.

Arif Babayevin yaradıcılığının inkişafında M.F.Axundzadə adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının misilsiz rolu olmuşdur. O, uzun illər bu teatrın solisti kimi fəaliyyət göstərmiş, bu işdə yorulmadan çalışaraq bir-birindən gözəl obrazlar yaratmışdır. Burada çalışdığı müddətdə, qısa bir zaman ərzində teatrın səhnəsində muğam operalarında Məcnun, Kərəm (Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" və "Əsli və Kərəm" operalarında), Aşıq Qərib (Zülfüqar Hacıbəyovun "Aşıq Qərib" operasında), Camal (Şəfiqə Axundovanın "Gəlin qayası" operasında), Şah İsmayil (Müslüm Maqomayevin "Şah İsmayıl" operasında) kimi yaddaqalan obrazları yaratmış və dinləyici auditoriyasında böyük uğur qazanmışdır. Xüsusi ilə xanəndənin məharətlə yaratdığı Məcnun obrazı opera tariximizdə önəmli yer tutmuş və opera sənəti tarixində bu rolun misilsiz ifaçılarından biri kimi tarixə düşmüşdür.

Xanəndə gözəl səsə malik olmaqla yanaşı, operada artistlik qüdrətini büruzə vermək bacarığı, emosionallığı, rəngarəngliyi üzə çıxartmaq, tamaşaçı ilə əlaqə yaratmaq və s. cəhətlərinə görə özünün təsirli, bənzərsiz və mənalı ifa tərzini yaratmışdır.

Qeyd edək ki, Arif Babayev M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirmişdir. Onun aktyorluq sənətinin incəliklərini səhnə sənətinin spesifik prinsiplərini dərindən bilməsi, eləcə də geniş səs diapazonu, incə və lirik səsə malik olması Məcnun obrazının təsirli alınmasına və yaddaşlara həkk olunmasına zəmin yaratmışdır.

Arif Babayevin Opera və Balet Teatrındakı fəaliyyəti həmişə sənətsevərlərin diqqət mərkəzində olmuşdur. Özünün dediyinə

görə, Opera və Balet Teatrının səhnəsi ciddi sənət ocağıdır. Oxumaq, öyrənmək istəyən ifaçı burada günü-gündən cilalanır, kamilləşir, təkmilləşir. Onun Məcnun rolu üzərindəki işini sənətkarın sənətdə atdığı ilk adddımlarının uğuru adlandırmaq olar.

Arif Babayevin "Məcnunu" elə ilk tamaşadan sonra böyük şöhrət qazandı. Onun səsi Füzuli şeiri və Üzeyir musiqisi ilə birləşib, bənzərsiz bir Məcnun yaratdı... Dahi Üzeyir bəyin istedadının süzgəcindən keçib gəlmiş səhnələr, partiyalar şirin, məlahətli səsə, incə səhnə mədəniyyətinə və əlbəttə ki, yaraşıqlı qamətə malik müğənninin ifasında estetik təsir gücünü daha da artırır.

Arifin səsinin zilində elə bir sehrə düşürsən ki, sanki həqiqi Məcnunu səhrada görürsən. Elə bil ki, səhra susuzluq mahnısını Məcnuna, Məcnunsa öz dərdini səhralara oxuyur:

Bəxtim, taleyim yoxdur,
Mən ki Məcnunam...

Opera teatrında Məcnun rolunda ilk çıxışı barədə Arif Babayev 1968-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində dərc etdirdiyi "Muğamlar xəzinəsi" məqaləsində belə yazır: "Uşaqlıqda, gənclik illərində adamın arzuları çox olur. İnsan yaşa dolduqca bu arzuların bəziləri həqiqətə çevrilir, bəziləri unudulub gedir. Elə arzular da vardır ki, o həyata keçdikdən sonra belə insan onunla yaşayır. Mənim belə böyük arzum xalqımızın sevimli, ölməz bəstəkarı Üzeyir Hacıbəyovun "muğamlar xəzinəsi" olan "Leyli və Məcnun" operasında Məcnun rolunu oynamaq idi. Bu gün fərəhlə deyə bilərəm ki, həmin arzu yerinə yetmişdir. Mən ilk dəfə olaraq 1966-cı ilin oktyabrında Məcnun rolunda çıxış etdim, Azərbaycan səhnəsində Füzuli sözünün və Üzeyir Hacıbəyov musiqisinin qüdrətini tamaşaçılar qarşısında bütün ləyaqəti ilə nümayiş etdirməyə çalışdım"[10].

Arif Babayev Məcnun rolunda qazandığı uğura görə Əfrasiyab Bədəlbəylini, Soltan Dadaşovu, Mehdi Məmmədovu həmişə minnətdarlıqla anır. Bu obraz haqqında Arif müəllimin dedikləri: "Məcnun roluna hazırlaşmağımda bu insanların çox böyük əməyi

---

[10] Rəhimli İ.Ə. Segah yanğısı. B.: İşıq, 1991, 156 s. (səh.34)

olmuşdur. Aktyorluq fakültəsində oxumağım aktyor sənətinə yiyələnməyimlə yanaşı, xanəndəliklə aktyor oyununu əlaqələndirməkdə də mənə yaxından kömək etmişdir. Mən bu sevimli qəhrəmanımın obrazını birdən-birə yaratmadım. Əvvəlcə bir sıra operalarda baş rollarda çıxış etdim, məndən əvvəl Məcnun rolunu oynayan sənətkarların yaradıcılığı ilə, ifa tərzi ilə tanış oldum. Xüsusən, Hüseynqulu Sarabski ilə daha çox maraqlanırdım. Bütün bu axtarışlardan sonra Məcnun rolunda çıxış etdim"[11].

Arif Babayev başqa bir müsahibəsində deyir: "Məcnun mənim üçün oynadığım bütün obrazların zirvəsində durur. Əslində bu obraz ölməz Füzulinin və dahi Üzeyir bəyin sənət yanğısından, sənət Məcnunluğundan irəli gəlir. Təbii ki, belə bir obrazı yaratmaq həm çətin, həm şərəflidir. Açığını deyim ki, neçə dəfə Məcnun oynadığımın dəqiq sayını bilmirəm, onu bilirəm ki, yaradıcılığımın yarısını Məcnun kimi yaşamışam. Hiss etmişəm ki, tamaşaçılar da mənim Məcnunluğumdan razı qalıblar"[12].

Bir faktı da qeyd edək ki, xalq yazıçısı Anar dahi bəstəkar Üzeyir Hacıbəylinin ömür yolundan bəhs edən "Uzun ömrün akkordları" sənədli bədii filmində Arif Babayevin yaratdığı Məcnun rolundan fraqmentlər salmışdır.

Operada müğənni həm oxuyur, həm musiqiyə uyğun hərəkət edir, həm də həmin obrazı yaşayır. Arif Babayevin istedadı, səsinə xas olan gözəl zəngulələr dinləyicini heyran etməyə bilmir. Səs diapazonunun geniş olması isə keşməkeşli bir ömür sürmüş insanın obrazını yaratmaq üçün geniş imkanlar yaradır.

Onun opera səhnəsində yaratdığı daha bir obraz M.Maqomayevin "Şah İsmayıl" operasından Şah İsmayıl roludur. Bu obrazda o, mehriban, şən, sevib-sevilmək arzusunda olan bir gəncin obrazını tamaşaçılara səmimiyyətlə təqdim edir. Ərəbzəngi ilə döyüş səhnəsində aktyor-müğənninin cəngavər kimi vuruşu gözəl təsir bağışlayır. Gülzarla görüş səhnəsində isə kövrək qəlbli İsma-

[11] Arif Babayev – 70. Mətni hazırlayan: M.Çəmənli. B.: 2008, 88 s.
[12] Təhmirazqızı S. Sənət sevgisi mənimlə birgə doğulub. // "Mədəniyyət" qəzeti, 19 fevral, 2016-cı il, səh.10

yılın keçirdiyi səmimi hissləri çox inandırıcı oynayır.

Arif Babayev muğamları səlis, təmiz və sərbəst oxuyur, məlahətli səsi ilə tamaşaçını valeh edir. Ümumiyyətlə, Arif Babayev hər hansı bir dəstgahı ifa edərkən, səsini onun məğzinə uyğunlaşdırır. Şah İsmayıl rolunda da belədir. O, təmkin və məharətlə bərabər obrazın daxili aləminə sirayət edə bilir. Şah İsmayılın bir obraz kimi açılmasında Arif Babayevin səhnədəki davranışı, muğam ifası, bir sözlə, bütün cizgiləri özünəməxsusdur.

Operadakı muğam partiyalarını ifa edən zaman Arif Babayev bütün səs diapazonundan istifadə edərək, özü də səsin axarına qarışır və tamaşaçını heyran edir. Bütün əsər boyu bir ifaçı kimi tamaşaçını öz sehrinə salan Arif Babayev bənzərsiz zəngulələri ilə obraza bir əlvanlıq gətirir. Ərəbzəngi ilə qarşılaşdığı səhnədə yenilməzlik, məğrurluq nümayiş etdirən, onu məğlub edən Şah İsmayıl Gülzarla (Gülnarə Əhmədovanın ifasında) qarşılaşdığı səhnələrdə daha çox qəlbən sevən bir aşiq kimi öz səsilə ürəkləri ram edir.

Arif Babayev bu operada bir solist kimi özünəqədərki heç bir Şah İsmayıla bənzəmir. Şah İsmayılın qılınc oynatmasından tutmuş, sevgi duyğularına qədər – sənətkar bütün bunları özünəməxsus tərzdə ifa edir. O, öz səsinin enib-qalxmalarında, bütün registrlərdə ifaçılıq məharəti göstərir, Şah İsmayıl qəhrəmanlığının səslə portretini yaradır, muğam və xalq musiqisinin palitrasından yaranan melodik zənginliyin qapısını tamaşaçı qəlbinə, zövqünə açır.

Arif Babayevin opera repertuarında, həmçinin Ü.Hacıbəylinin “Əsli və Kərəm” operasından Kərəm, Zülfüqar Hacıbəyovun “Aşıq Qərib” operasından Qərib, Şəfiqə Axundovanın “Gəlin qayası” operasından Camal obrazları onun opera teatrında 25 ilə yaxın müddətdə gərgin fəaliyyətində xüsusi yerlərdən birini tutur.

Ağdamda səsi olan istedadlı gənclər çox idi. Ancaq Kərəm rolunun əsas ifaçısı Arif Babayev olmuşdur. “Əsli və Kərəm” tez bir zamanda bütün Qarabağa səs saldı. “Əsli və Kərəm”də Arif Babayevin uğurunun söz-söhbəti gəlib Bakıya da çatdı. Həmin illərdə Şəmsi Bədəlbəylinin rejissorluğu ilə hazırlanmış “Əsli və

Kərəm" M.F.Axundzadə adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının repertuarında ən çox oynanılan əsərlərdən idi. Əsli rolunda Rübabə Muradova, Kərəm rolunda isə Qulu Əsgərov böyük şöhrət qazanmışdılar.

Görkəmli bəstəkar və rejissorlar Əfrasiyab Bədəlbəyli, Bəhram Mansurov və Şəmsi Bədəlbəylinin təşəbbüsü və şəxsi cəhdləri ilə Ağdam xalq teatrının solisti Arif Babayev Kərəm rolunu oynamaq üçün Bakıya dəvət edildi. Bir neçə məşqdən sonra, 1962-ci il yanvar ayının 30-da Akademik Opera və Balet Teatrında musiqi səhnə sənətimizin incilərindən "Əsli və Kərəm" (dirijor Kazım Əliverdibəyov idi) göstərildi. Əsli rolunu Rübabə xanım, Kərəmi isə Arif Babayev oynadılar.

Operanın tamaşası gözlənildiyindən də artıq uğurla keçdi. Arif dəfələrlə alqışlarla qarşılandı. Böyük səhnəyə gəliş beləcə açıldı[13].

Soltan Dadaşovun yeni quruluşunda Zülfüqar Hacıbəyovun "Aşıq Qərib" operasının premyerası 1969-cu il dekabr ayının 15-də oldu. Görkəmli bəstəkar Zülfüqar Hacıbəyovun "Aşıq Qərib" operasında saz götürüb söz qoşan Qərib – Arif Babayev sanki "Dədə Qorqud" dastanlarından gələn bir qəhrəmandır. Arif Babayev baş rolu, Rübabə Muradova isə Şahsənəmi ifa etdilər. Uzun illər Arif Aşıq Qərib rolunda səhnəyə çıxdı. Sonrakı illərdə Soltan Dadaşovun 80 illik yubileyi münasibətilə kollektiv unudulmaz sənətçinin xatirəsinə onun quruluş verdiyi "Aşıq Qərib"i rejissor Kamal İsgəndərovun işləməsində yenidən göstərdi. Bu dəfə Arifin tərəf müqabili Qəndab Quliyeva oldu.

Rolların ifasında opera solistinin zahiri görkəminin də böyük əhəmiyyəti vardır. Arif Babayev boy-buxunu elə bil ki, məhz Məcnun, Şah İsmayıl obrazları ilə yanaşı, həm də Qərib üçün biçilib. Aktyor öz hərəkətləri – yerişi, duruşu, sazı sinəsində tutmağı ilə tamaşaçıları ovsunlayır.

Arif – Aşıq Qərib sanki sazını deyil, Şahsənəmin (tərəf müqabili Qəndab Quliyeva) eşqilə çırpınan ürəyinin tellərini dilləndi-

---

[13]Hidayətqızı Saminə. "Muğam qəsri". Bakı, Apostrof, 2016, 576 səh. (s.29)

rir. Bu ürək vüsallı-hicranlı bir eşqin əbədi gözəlliyində öz ömürgün nəğmələrini oxuyur.

Arif oxumasında qəmi həm görürsən, həm eşidirsən. Gah səadətinə, gah da dərdinə bürünən Aşıq Qərib öz taleyinin qəribliyində əbədi səhnə ömrü qazanır. Bu özünəməxsus Qərib - Arif Babayevin yaratdığı Qəribdir[14].

Məşhur bəstəkarımız Şəfiqə Axundova ilk dəfə opera janrına müraciət edərək "Gəlin qayası" əsərini yazmaqla Şərqdə ilk opera yazan qadın bəstəkarı kimi tarixə düşmüşdür. Libretto müəllifləri Azərbaycan xalq yazıçısı Süleyman Rəhimov və şair İsgəndər Coşqundur. İlk tamaşası 1974-cü il aprel ayının 27-də göstərilən operada əsas rolların ifaçıları Arif Babayev (Camal) və Nəzakət Məmmədova (Gülbahar), tamaşanın dirijoru respublikanın xalq artisti Rauf Abdullayev, rəssamı Ənvər Almaszadə, baletmeystri xalq atristi Qəmər Almaszadə idilər.

1976-cı ildə xalq artisti, görkəmli rejissorumuz Mehdi Məmmədov "Leyli və Məcnun"u tamaşaya qoymuşdur. İfadə prinsipləri, üslub xüsusiyyətləri ilə seçilən bu tamaşada baş rol əsas aparıcı kimi yenə Arif Babayevə tapşırıldı. Onu da qeyd edək ki, "Leyli və Məcnun" operasında Arifin tərəf müqabilləri əvvəlcə Rübabə Muradova, sonralar Zeynəb Xanlarova, Nəzakət Məmmədova, Qəndab Quliyeva, Səkinə İsmayılova, Yaqut Abdullayeva; "Əsli və Kərəm"də Əsli – Rübabə Muradova, Zeynəb Xanlarova, Nəzakət Məmmədova, Rəsmiyyə Sadıqova; "Şah İsmayıl"da Ərəbzəngi – Gülxar Həsənova, Qəndab Quliyeva, Səkinə İsmayılova, Sahibə Əhmədova olublar. "Gəlin qayası" və "Aşıq Qərib" operalarında Arif Babayev əsasən Nəzakət Məmmədova ilə oynayıb.

Opera aktyoru üçün vacib şərtlərdən biri də odur ki, müğənnisolist olmaqla və vəziyyətdən asılı olaraq yaranan psixoloji ovqatları "yaşamaqla" yanaşı, tərəf müqabilini musiqi dialoqlarında həssaslıqla duya bilsin.

Arif Babayev sənətinin qüdrətidir ki, o, bütün rollara yaradıcı

[14]Hidayətqızı Saminə. "Muğam qəsri". Bakı, Apostrof, 2016, 576 səh. (s.108)

şəkildə yanaşır. Həmin qəhrəmanların səhnə həyatını elə canlandırır ki, tamaşaçı sanki onları ayrı-ayrı zamanlarda səhnədə deyil, həyatda görüb-duyur və öz yaddaşına nəqş edir. Çünki Arif Babayev böyük sənətkardır. O, Rübabə Muradova, Zeynəb Xanlarova kimi böyük sənətkarlarla yanaşı Nəzakət Məmmədova, Səkinə İsmayılova, Qəndab Quliyeva kimi istedadlı müğənnilərlə səhnədə tərəf müqabili olmuş, onları gözəl duyaraq əsərin daha da canlı alınmasına yardım etmişdir.

Beləliklə, Arif Babayevin bir mükəmməl ifaçı kimi püxtələşməsində, kamil sənətkar kimi yetişməsində Azərbaycan Dövlət Opera və Balet Teatrının fəaliyyəti əvəzsiz olmuşdur. Kərəm kimi yanmaq, səhraların Məcnunu olmaq, Xətai kimi hökmranlıq etmək, Qəribin qərib məhəbbətini yaşamaq və bu rolların rəngarəngliyində Arifliyini təsdiq etmək əsl sənət fədailiyidir.

Səsinin vurğunluğuna bizi qərq edən Arif Babayev avazı illər keçəcək, yenə də könüllərdə yer tutacaqdır. Zamanın sınağından uğurla çıxmış Arif səsi yenə də öz hekayəsində, öz sanbalında, bənzərsizliyində insanın qəlbini vəcdə gətirəcək. Yəqin ki, o səs illərdən-illərə yol gedəcək...

# MUĞAM İFAÇILIĞI

Muğam xalq musiqi təfəkkürünün dərin mənalı, aydın və səlist ifadəli yaradıcılıq məhsuludur. Müəyyən sistemə əsaslanan muğam – dolğun məzmunu, zəngin forması olan musiqi əsəridir. Odur ki, onun ifası bədii cəhətdən bitkin, ifadə baxımından isə rəvan olmalıdır.

Azərbaycan muğam musiqisinin inkişafında ağdamlı musiqi yaradıcılarının, eyni zamanda xanəndələrin böyük xidmətləri olmuşdur. Bu xanəndələr xalqın mənəvi aləmininin, zəkasıının, arzu-istəyinin ifadəsi olan muğamlarımızı yaşatmış, onun qorunub-saxlanılmasında müstəsna xidmətlər göstərmişlər.

Muğamların yeni variantlarının yaradılması da xanəndələrin yaradıcılıq – ifaçılıq keyfiyyətləri ilə bağlı olub, hər bir xanəndənin ifaçılıq tərzindən meydana gələn xüsusiyyətdir. Hər bir xanəndə oxuduğu muğama öz nəfəsini, öz oxuma tərzini, özünəməxsus ifaçılıq ənənəsini gətirir. Belə xanəndələrdən – Hacıbaba Hüseynov, Yaqub Məmmədov, İslam Rzayev, Əlibaba Məmmədov, Arif Babayev, Alim Qasımov və başqalarını misal göstərə bilərik.

Əsl sənətkar olmaq, xalqın rəğbətini qazanıb ürəklərə həmişəlik yol tapmaq, ən başlıcası, milli sərvətimiz sayılan muğamlarımızın saflığını qoruyub, onu özünəməxsus çalarlarla bəzəyib zənginləşdirmək hər sənətkara nəsib olmur. Bu gün milli muğam ifaçılığının görkəmli nümayəndəsi, məlahətli səsi, böyük istedadı ilə ustad xanəndə kimi tanınan Arif Babayev ən qüdrətli sənətkarlardan biri kimi qəbul olunur.

Arif Babayev sənəti çoxşaxəlidir. Onun sənəti musiqi tariximizdə, xüsusən muğam sənətində ayrıca, bənzərsiz, özünəməxsus bir məktəbdir. O, XX əsrdə Azərbaycan milli musiqisinin ən yüksək zirvəsi sayılan xanəndəlik sənətini inkişaf etdirərək daha da irəli aparmışdır. Qeyd etmək lazımdır ki, xanəndə həm də dövrünün məşhur sənətkarları ilə sıx təmasda olaraq onu əhatə edən mədəni mühitdə formalaşır, yetkinləşir, ustad sənətkarların yaradıcılığından bəhrələnir və onların ənənəsinə arxalanırdı. Bütün bunları əsas götürərək görünür ki, onun yüksək ifaçılıq mədəniy-

yətinə malik olmasında məhz ustad xanəndə Seyid Şuşinskinin, Xan Şuşinskinin, Zülfü Adıgözəlovun və b. xanəndə və ifaçıların böyük rolu olmuşdur. Məhz onların ənənəsini yaşadan, yeni nəfəslərlə muğamlarımızı zənginləşdirən ustad xanəndə zirvəsinə çatmışdır. Geniş səs imkanlarına malik olan xanəndə demək olar ki, tarın bütün pərdələrində asanlıqla gəzişə bilir.

Arif Babayev muğamın bütün tərkib hissələrini və bədii tamlığını yüksək şəkildə təqdim etmiş və dolğun ifadəsini tapmışdır. Görkəmli xanəndə muğam şöbələrinin məzmun və xarakterinin düzgün verilməsi üçün hər şöbəni daha dəqiq səciyyələndirən intonasiya və kadans dönməsini mümkün qədər konkret səsləndirməyə çalışmışdır. Məhz bu xüsusiyyətinə görə də hər bir şöbə onun ifasında özünün obrazlılığı, yetkinliyi və orijinal ifadəliliyi ilə fərqlənmişdir.

Arif Babayev böyük muğam ustadıdır. Sənətkarın həzin, məlahətli səsi onun yaradıcılıq istedadı ilə həmahəngdir. Tarın bütün pərdələrinə düşən bu səsin zili də, bəmi də bir-birindən gözəldir. Səlist, aydın diksiyası, boğaz xırdalıqları, zəngulələri yüksək istedadın təzahürüdür. Bu keyfiyyətlərin məcmusu sənətkarın ifa etdiyi muğam dəstgahlarına, xalq mahnılarına, təsniflərə yeni ruh, təravət, nəfəs gətirir.

Arif Babayev milli muğam ifaçılığı sahəsində öz ifaçılıq məharəti ilə uzun illərdən bəri özünəməxsus yer tutur. Allah vergisi olan müqəddəs səsini qoruyub saxlamaq, əcnəbi xallardan mühafizə etmək ustadın təqdirəlayiq sənətkarlıq məziyyətlərindəndir.

Hər bir sənətdə olduğu kimi, oxumağın da öz texnikası var: nəfəsalma, tələffüz, temp və ritm təmizliyi, səsin sözlə əlaqəsi, fikrə uyğun dəyişməsi və s. Musiqisevər xalqımız oxumağın bir çox texniki incəliklərini çox yaxşı duyur, hiss edir. Ona görə də onların zövqünü oxşamaq hər xanəndənin işi deyil. Arif Babayevin dolğun, təmkinli, sərbəst ifa tərzi, aydın tələffüzü onun mükəmməl bir xanəndə olmasını aydın şəkildə göstərir. Lüzümsuz səsçıxarmalar kimi formal zahiri əlamətlər onun sənətinə tamamilə yaddır.

Qeyd etmək lazımdır ki, xanəndə ifa etdiyi muğamın məzmun və xarakterinin düzgün verilməsi üçün hər şöbəni səciyyələndirən

intonasiya və kadans formullarını dəqiq səsləndirməyə çalışmışdir. Məhz bu baxımdan ustad xanəndənin oxuduğu muğamlar özünün obrazlığı, məzmunca yetkinliyi, orijinal tembr ifadəliyi ilə fərqlənir.

İfaçılıq tarixindən məlumdur ki, muğam oxuyanların səs tembrləri müxtəlifdir: zil, orta, bəm, sinə səsi, boğaz səsi və s. Arif müəllimin geniş diapazonlu səsindən danışarkən onun səsinin həm bəm, həm orta və zil registrlərdə aydın, şəffaf, güclü və şirin səsini xüsusilə qeyd etməliyik. O oxuyanda asanlıqla müəyyən etmək olur ki, bu Azərbaycan xalqına mənsub xanəndənin avazıdır. Onun səsinin çox ecazkar məqamları var. Təkcə səs azdır. Onu təkmilləşdirmək üçün, tələffüzə, seçilən qəzəllərə, başqa muğamların sirlərinə bələd olmaq üçün gərgin zəhmət və axtarış lazımdır. Arif Babayevin səs işlətmək bacarığı, səslə gəzişmək bacarığı, xırdalıqlar və qaynatmalar öz ölçü vahidində heç bir artıqlıq-əksiklik olmadan məharətlə idarə olunmaqdadır. Bu da xanəndənin ümumi ifaçılıq qabiliyyətinin ən yüksək amplitudasını təşkil edir, onun ustalığını tamaşaçı və dinləyiciyə aşılayır.

Arif Babayevin həzin, məlahətli, ipək kimi yumşaq səsi onun yaradıcılıq istedadı ilə üst-üstə düşür və tarın bütün pərdələrinə düşən bu səsin zili də, bəmi də bir-birindən gözəldir. Səlis, aydın diksiyası, boğaz xırdalıqları, zəngulələri yüksək istedadın təzahürüdür. Bu keyfiyyətlərin məcmusu sənətkarın ifa etdiyi muğam dəstgahına, xalq mahnılarına, təsniflərə yeni ruh, yeni nəfəs gətirir. Arif Babayevin şəxsiyyəti, davranışı, auditoriya qarşısında özünü idarə etməsi onun daxili zənginliyinin göstəricisidir.

Arif Babayevin səsi ən qəmli, ən müdrük çalarında belə adamı nikbin ruha kökləyə bilir. Bu səsin emosional təsiri insanda məhəbbət hissini oyadır. İnsanı bir anlıq da olsa tərki-dünya edir. Arif Babayev səsində, eləcə də daxili aləmində olan gözəllik sanki vəhdət təşkil edir. Bütün bunlar onun xasiyyətində və əməlində təcəssüm olunur.

Gözəl muğam ifaçısı Arif Babayevin ifasında “Segah-Zabul”, “Rast”, “Mirzə-Hüseyn segahı”, “Şur”, “Çahargah”, “Bayatı-Şiraz” muğamları öz yüksək sənətkarlıq keyfiyyətlərinə görə başqa-

larından fərqlənir. O, hər muğamın öz musiqi dramaturgiyasına, səs-məqam düzülüşü, guşə keçidlərini yüksək xırdalıqla əlaqələndirir. Muğamın xarakterinə xas, mənaca musiqi obrazını tamamlayan, onların ruhuna, ölçü-biçiminə uyğun qəzəllər seçir. Həmin qəzəllərdə sait səslər çox olmalıdır ki, axıcılıq pozulmasın, rahat oxunsun. Qəzəllər yaxşı seçiləndə muğamların hissələrini də əlaqələndirmək rahat olur.

Qeyd edək ki, Arif Babayev repertuarında öz əksini tapan muğamlarda və təsniflərdə Azərbaycanın klassik şairlərinin, o cümlədən Məhəmməd Füzuli, Seyid Əzim Şirvani, Heyran xanım Qarabağlı, Əbülqasım Nəbati, Əliağa Vahid və b. qəzəllərinə əsaslanır.

Xüsusi olaraq deməliyik ki, Arif Babayev "Mirzə-Hüseyn segahı"nın, "Zabul-segah"ın, "Xaric segah"ın gözəl ifaçısı kimi həm musiqi ictimaiyyətinin, həm də geniş dinləyici kütləsinin hüsn-rəğbətini qazanmışdır.

Məşhur tarzənimiz Əhmədxan Bakıxanov "Şur" dəstgahını hazırlayarkən Arifə müraciət etmiş və o da əsas bölmələrin ifası, xüsusilə "Səmayi-şəms"i Arif sənətinin zirvəsi kimi təqdim etmişdir.

"Rast" muğamını xüsusi ustalıqla ifa edən Arif Babayev "Rak Xorasani" guşəsini ifa edərkən sanki "Rast"ın şahlıq dünyasında sehirli bir aləmə varır. Bəli, "Rast" musiqi məkanımızdır, kökümüz, bünövrəmizdir. Arif müəllim "Rast"ı oxuyanda sanki nəcibləşirsən, kamillik zirvəsinə ucalırsan.

Arif Babayevin ifaçılıq tarixində bir "Segah" ustası kimi ayrıca yeri vardır. Böyük sənətkarın "Segah"ı bir ayrı aləm, bir ayrı möcüzədir. Dinlədikcə dinləmək, sevmək, sevilmək istəyirsən. Onun oxunuşunda "Segah" muğamı mənəvi saflıq, ruhi qidadır. Azərbaycan xalqının ən dəyərli muğam avazlarından biri, ana laylasından süzülüb canlara hopan "Segah" muğamı Arif Babayevin məlahətli səsində sanki yenidən canlanaraq, insanlara mənəvi təsir bağışlayır, onların ruhuna, canına sanki yeni bir həyat eşqi bəxş edir.

"Segah" muğamında bizim xalqımızın ən xoş arzuları, nikbinliyi, qəhrəmanlığı ifadə olunur. Bu baxımdan Arif Babayevin dinləyicilərini məftun edən bənzərsiz gözəl səsi elə bil ki, "Segah"

muğamının boyuna ölçülüb-biçilmişdir.

Təsadüfi deyil ki, Arif Babayev haqqında danışarkən "O, "Segah"a heykəl qoyub" – deyirlər. Yanıqlı ahənglə ifa etdiyi "Xaric segah" ölməz sənət nümunəsinə çevrilmişdir. Musiqiçilər arasında belə bir deyim var ki, əgər bütün muğamlar bir gül çələnginə bənzəyirsə, "Segah" bu çələngin tacıdır. Arif Babayev isə "Segah"ın ən mahir ifaçısıdır. Arif "Segah" muğamından modulyasiya edib hər hansı bir muğama asanlıqla keçə bilir.

Məlumdur ki, Azərbaycan musiqisində əsas muğamlardan biri olan "Segah" muğamının kökü aşıq musiqi yaradıcılığında da əsas yer tutur. Aşıq mahnılarının çoxu məhz bu muğam üzərindədir. Bu muğam bizim xalqımızın ana laylasından gələn bir musiqi parçasıdır.

Nədən muğamlardan daha çox "Segah"a bu qədər bağlısınız?" – sualına sənətkar belə cavab verir: "Ona görə ki, ölməz muğamlarımızın özü həyat fəlsəfəsindən yoğrulmuşdur. "Segah" isə elə uşaqlıqdan mənim ürəyimə yol tapıb. Bu muğamın nəsə ayrı bir cazibəsi var, bir sözlə, onunla ürəyimi boşalda bilirəm: insana, zamana, dünyaya! "Segah" muğamlar içərisində xalqa ən yaxın olanıdır"[15].

Bir dəstgah olaraq "Segah" Azərbaycanda daha geniş yayılmış muğamdır və digər Azərbaycan muğamları kimi bir-birinin ardınca gələn və ümumi inkişaf xəttini təyin edən ayrı-ayrı şöbə və guşələrdən ibarətdir.

"Segah" ailəsinə aid muğamlardan "Segah Zabul" bəstəkarlar tərəfindən nota alınmışdır. Mirzə Mansur Mansurovun ifasında "Zabul" muğamını Tofiq Quliyev notlaşdırmışdır (1936), "Segah Zabul" instrumental muğamı Nəriman Məmmədov tərəfindən Əhməd Bakıxanovun ifasından (1965), Arif Əsədullayev tərəfindən Elxan Müzəffərovun ifasından (2006), Əkrəm Məmmədli öz ifasından "Azərbaycan muğamları" kitabında bir çox muğamları o cümlədən "Segahı" nota salmışdır. Bəstəkar yaradıcılığında da bu muğama çox müraciət olunur. Vasif Adıgözəlov bu muğam

[15]Əfəndiyeva R. Vətəndir Arifin səsi. B.: Nurlan, 2006, 192 səh. (səh.15)

əsasında “Segah simfoniyası”nı (2005) yaratmışdır.

Yaxın və Orta Şərq ölkələri musiqisində Segah yalnız tək bir növdən ibarət olduğu halda, Azərbaycan musiqisində Segahın bir neçə növü var: “Orta Segah”, “Xaric Segah”, “Mirzə Hüseyn Segahı”, “Zabul Segah” “Haşım Segah”.

Dahi bəstəkar Üzeyir Hacıbəyli “Azərbaycan xalq musiqisinin əsasları” kitabında “Segah” məqamının quruluşunu göstərərək, onun səsqatarının diapazonunun 1/2 — 1 — 1 formulu üzrə qurulmuş və qovuşuq (zəncirvari) üsulda birləşmiş üç bərabər tetraxorddan əmələ gəldiyini bildirmişdir. Bu səsqatarında orta tetraxordun birinci pərdəsi ladın mayəsidir. Birinci oktavadakı *mi* mayə olarsa, “Segah” ladının səsqatarı belə olar:[16]

130




Lakin, Azərbaycan muğam ifaçılığında digər tonallıqlarda da ifa olunan yuxarıda adları çəkdiyimiz segah muğamları bir-birindən məhz mayə yüksəkliklərinə görə seçilirlər.

Bütün bu segah növləri bir-birindən fərqli müxtəlif tonallıqlarda ifa olunduğuna görə adları da dəyişir. Azərbaycanda “Segah” muğamının beş tonallıqda ifaları məlumdur. Bunlarda:

I. “Xaric Segah” si mayəlidir və ən qədim növ hesab olunur:



II. “Orta Segah” mi mayəlidir və tarın orta registrində ifa olunduğundan belə adlanır:

[16]Üzeyir Hacıbəyli “Azərbaycan xalq musiqisinin əsasları”. Bakı, Elm, 1985, s.24



III. “Mirzə Hüseyn” segahı lya mayəlidir. Azərbaycan müasir muğam ifaçılığında çox istifadə olunan dəstgahdır:



Bu tonallıqda Azərbaycan professional musiqisində “Segah”ın daha bir variantı -“Yetim Segah” (buna “Kiçik segah”, “Səğir segah” da deyilir) da ifa olunur. Həcmcə kiçik olduğundan, “Segah”ın yalnız bəm şöbələrini əhatə etdiyinə görə bu adı almışdır. Məhz “Yetim segah” əsasında “Mirzə Hüseyn Segahı”nın formalaşdığı ehtimal edilir.

IV. “Yalxın segah” re mayəlidir (bəzən “Yalxı” da deyilir):



V. “Haşım Segah”, yaxud “Hüseynqulu Segahı” adı ilə tanınır və sol mayəlidir:



Məmməd Saleh İsmayılovun qeyd etdiyi kimi görkəmli xanəndə, aktyor, Xalq artisti Hüsenqulu Sarabski və əməkdar artist Haşım Kələntərli vaxtilə “Segah”ı daima sol tonallığında ifa etdiklərinə görə xalq arasında onların adı ilə tanınmışdır.[17]

Bunlardan əlavə Azərbaycan musiqisində “Zabul segah” (mi mayəlidir), “Habil segah” (re mayəlidir)[18] kimi növləridə mövcuddur ki, bu da bir daha Azərbaycanda Segahın zənginliyindən

[17]M.S.İsmayılov Azərbaycan xalq musiqisinin janrları. Bakı, İşıq, 1984

[18]Görkəmli kaman ifaçısı Habil Əliyevin özünəməxsus ifa tərzinə görə “Segah”ın bu növünə onun adı əlavə edilmişdir.

xəbər verir. Şübhəsiz, bütün bu muğamlar bir-birindən təkcə tonallıqlarına görə deyil, həm quruluşuna, şöbələrinin sayına görə də fərqlənirlər. Bəziləri bir qədər geniş dramaturji baxımdan inkişaflı, digərləri isə çox kiçik, özü bir şöbə şəkildə çıxış edərək muğam ifaçılıq repertuarında özünə yer almışdır.

Dahi bəstəkar Üzeyir Hacıbəyli "Azərbaycan xalq musiqisinin əsasları" kitabında "Segah"ın dörd növdən olduğunu bildirir. Adətən "Segah" muğam dəstgahı göstərilən şöbələrindən ibarətdir:

1.Mayeyi-Segah
2.Şikəsteyi-fars
3.Mübərriqə
4.Əraq [19]

Bütün segah muğamları arasında "Mirzə Hüseyn Segahı" xanəndələr tərəfindən ən çox sevilən və ifa olunan muğamdır. Bu muğam ilk dəfə Mirzə Hüseyn adlı Azərbaycan xanəndəsi (XVIII əsr) tərəfindən ifa olunduğundan onun adı ilə adlandırılmışdır. Azərbaycanın bir çox qocaman ustad xanəndələrinin ifasında təkmilləşmiş və möhtəşəm şəkildə tarixə düşmüşdür. Bunlardan Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Xan Şuşinski və b. bənzərsiz ifaları sonrakı nəsil xanəndələr üçün bir örnək olmuşdur. Sonralar XX əsrin ikinci yarısında Azərbaycan xanəndəlik sənətində "Mirzə Hüseyn Segahı" muğam dəstgahını Yaqub Məmmədov, Eynulla Cəbrayılov, Arif Babayev, Səxavət Məmmədov, Süleyman Abdullayev, Alim Qasımov və başqaları ustalıqla oxumuşdur.

"Mirzə Hüseyn Segahı" ustad sənətkar Arif Babayevin ifasında özünəməxsus tərzdə səslənmişdir. Xanəndə bu muğamın ifasında şöbə və rəng arasında təzadlığı artırmış və muğamın dramaturji prinsiplərini daha da zənginləşdirmişdir. Bunu daha aydın şəkildə göstərmək üçün xanəndənin ifasında "Mirzə Hüseyn Segahı" muğam dəstgahını nota aldıq və təhlilə cəlb etdik. Əlbəttdə xanəndə bu muğam dəstgahını bir neçə dəfə lentə alıb, lakin onun istəyi ilə biz 1966-ci ildəki lent yazısından istifadə etmişik.

---

[19]Üzeyir Hacıbəylinin "Azərbaycan xalq musiqisinin əsasları".Bakı, Elm, 1985, s.32

Arif Babayevin ifa etdiyi bu muğam dəstgahı daha yanıqlı, həsrətli, kövrək, dərin sevgi hissi ilə səslənir. Bu da ondan irəli gəlir ki, onun sənət yolu məhz, Qarabağ torpağında Şelli Məhəmməd, Bahadur dayı, Bəylər kişi kimi yerli xanəndələrin segah muğam sədaları altında keçmişdir. Onunla apardığımız söhbətlər içərisində ən çox "Mirzə Hüseyn Segahı"nı sevdiyini dəfələrlə vurğulayır. Hətta xanəndənin "Mən muğamları bilirəm, oxuyuram və hər biri mənim üçün əziz və şirindir. Lakin içərisində hansı muğam sənin ruhuna tam yatır, sənin səs tellərinə, boğazına düşürsə o sənindir. Bu mənada mənim üçün "Mirzə Hüseyn Segahı" əvəzedilməzdir. Mən bütün varlığımı, bütün səsimi bu muğamda göstərə bilirəm. Bu mənada həmişə çalışıram "Mirzə Hüseyn Segahı"nı oxuyum"[20].

Arif Babayevin ifasında "Mirzə Hüseyn Segahı" muğam dəstgahı ilk dəfə 1966-cı ildə lentə alınmışdır. Bu səs yazısında xanəndəni tarda Azərbaycanın məhşur ifaçısı, Əməkdar artist Əhsən Dadaşov, kamançada isə xalq artisti Şəfiqə Eyvazova müşayiət etmişdirlər. Onun ifasında dəstgahın özünəməxsusluğunu daha da dərindən nəzərə çatdırmaq üçün muğamı mümkün qədər nota almağı zəruri hesab etmişik.

İlk öncə xanəndənin ifasında təhlil edəcəyimiz "Mirzə Hüseyn Segahı" muğam dəstgahının səsqatarının formulunu göstərmək istərdik:



Bu muğam dəstgahı xanəndənin ifasında aşağıdakı şöbələrdən ibarətdir:

1.Dəraməd
2.Manəndi-müxalif
3.Rəng
4.Zil segah

[20]İlham Rəhimli "Segah yanğısı". Bakı, İşıq, 1991, 156 s. (səh.42)

5. Rəng
6.Üst segah
7.Mübərriqə
Bu tərkibdən fərqli olaraq, “Muğam” dərsliyində “Mirzə Hüseyn Segahı”nın şöbələri aşağıdakı kimi göstərilmişdir:
1.Manəndi-müxalif
2.Bəm Segah
3.Zil Segah
4.Şikesteyi -fars
5.Mübərriqə
6.Segaha qayıdış[21]
Xanəndənin ifasında bütün bu şöbə və guşələr bir-birindən fərqli ahənglərlə, ritmləri və pərdələri ilə seçilir.
Adətən “Mirzə Hüseyn Segahı” muğam dəstgahı çox da böyük olmayan instrumental girişlə başlayır. Girişi şərti olaraq iki hissəyə bölmək olar:
I. Dəraməd - dəqiq metroritmə əsaslanan instrumental giriş.
II. Bərdaşt – giriş funksiyası yerinə yetirən tarın improvizasiyalı solosu .
Giriş üç cümlədən ibarət period formasındadır:
aa + bb +cc
Dəramədin diapazonu:



Göründüyü kimi, burada əsasən segah məqamının orta və üst tetraxordlarının göstərilməsi aparıcı rol oynayır. Maraqlıdır ki, ladın VII və VIII pərdələrinin alterasiyası (re bemol-mi bemol) muğamı intonasiya baxımından daha dolğun və zəngin edir.

[21]A.Nəcəfov, V.Məmmədəliyev. “Muğam” dərs vəsaiti. 2017, səh.78

## *Dəraməd*




Dəramədin I cümləsi mayə pərdəsindən yuxarı istiqamətlənən melodik şəklində məqamın mayədən yuxarıda yerləşən pərdələrini göstərmək şərti ilə VI pərdədə qərarlaşırsa, II cümlə (b) eyni prinsip üzrə hərəkət edib cavab xarakteri daşıyaraq geriyə - mayə pərdəsinə dönüb qərarlaşır.

III cümlə (c) əvvəlkilərdən fərqlənərək daha inkişaflıdır və öz funksional məzmununa görə tamamlayıcı xarakter daşıyır. Onun melodik şəklində ilk çıxış edən yuxarı kvarta sıçrayışlı intonasiya (do-fa) dəstgahın sonrakı şöbələrində öz dolğun ifadəsini tapır. III cümlə fərqli olaraq məqamın ən yüksək tonlarında başlayan sek-

vent hərəkətli zəncirlərlə aşağı enərək mayəni möhkəmləndirir. Onu da qeyd edək ki, Arif Babayev digər muğam ifaçılarından fərqli olaraq "Mirzə Hüseyn Segahı"nda dəraməddən sonra birbaşa "Manəndi-müxalifin" şöbəsini ifa edir. Nə üçün? – Ona görə ki, bu hissə ənənəvi dəraməddən fərqli olaraq muğamın bütün məqam – intonasiya materialını əks etdirilir. Burada yalnız dəstgahın birinci şöbəsi olan "Manəndi-müxalifin" məqam-intonasiya əsası həm dəqiq metroritmə əsaslanan instrumental və improvizasiyalı hissədə göstərildiyinə görə onun daha çox bərdaşt funksiyasını yerinə yetirdiyini deyə bilərik. Dəramədin instrumental sinkopalı sonluğundan sonra bərdaşt funksiyasını yerinə yetirən tarın solo ifası səslənir. Belə mükəmməl ifadan sonra xanəndə "Manəndi-müxalif" şöbəsinə keçid edir.

"Manəndi-müxalif" şöbəsində xanəndə bir sıra qəzəlləri ilə tanınmış Heyran xanım Qarabağlının qəzəllərindən istifadə etmiş və məharətlə bəhrələnmişdir. Qeyd edək ki, Arif Babayev qəzəl seçimində də yüksək bacarıq nümayiş etdirir. Oxuduğu hər bir muğamın xarakterinə uyğun olaraq seçdiyi qəzəllər onun ifasında aydın və təmiz səslənir. Onu da vurğulayaq ki, xanəndə təkrarlara yol verməmək üçün daima yeni qəzəl axtarışında olur. Onun möhkəm hafizəyə, iti yaddaşa malik olması klassik poeziyanı mükəmməl bilməsinə kömək edir. Məhz bu kefiyyətlərinə görə o, sözü, qəzəli musiqiyə, muğama bacarıqla uyğunlaşdırır.

Xanəndə muğamın çox yanıqlı, üsyankar xarakterli olduğunu nəzərə alaraq oxuduğu poetik mətni də bu ruha uyğun seçib.

"Mirzə Hüseyn Segahı" muğamında "Manəndi-müxalif" şöbəsinin məqam əsası Segah muğamından fərqlənir. Məsələn "Müxalif" adlı şöbədə (muğam bu şöbə ilə başlayır), onun səs qatarında çahargah məqamı üçün xarakter olan - 1/2-1.1/2-1/2 quruluşlu tetraxord iştirak edir ki, bu da segahın ahənginə yeni rəng qatır və onun yeni variantını yaradır.

"Manəndi-müxalif" səs qatarı: (Çahargah)



Bu şöbə boyu  əsas ton (fa) vurğulanır və onun üzərində gəziş-mələr bu tonun aparıcı rolunu təsdiqləyir. Burada xanəndənin çoxlu sayda zəngulələr, melizmatik bəzəklərdən istifadə etməsi səsinin xırdalıqlarını nümayiş etdirir. Şöbədə melodik quruluşun əsas tondan aşağıda yerləşən pərdələrin göstərilməsi üzrə hərəkəti mühüm yer tutur.

*Manəndi-müxalif*




“Manəndi-müxalif” şöbəsinin poetik əsasını Heyran xanım Qarabağlının qəzəli təşkil edir. Rəməl bəhrində yazılmış bu qəzəl “Manəndi-müxalif” şöbəsini bütövlükdə əhatə edir:

FA”iAatun fə”ilAtün fə”ilAtün fə”ilün  
Kimsənin mən tək görüm halı pərişan olmasın,  
Həmdəmindən ayrılıb nabəndi-hicran olmasın.

Tövbə etdim bağlanmayım bundan belə,
Ta ki hicrimdə könül odlarda buryan olmasın.

Aşkar olsa dodağımda təbəssüm bir kərə,
Qeyri mümkündür bu yanmışte peşman olmasın.

Ümumiyyətlə, qeyd edək ki, Arif Babayevin ifasında “Mirzə Hüseyn” dəstgahı bir neçə versiyada səslənmişdir. Muğamın əsas qanunauyğunluqlarının saxlanılması şərtilə xanəndə hər dəfə ona müəyyən şəraitdən və vəziyyətdən asılı olaraq bəzi dəyişikliklər edir. Məsələn, şöbələrin poetik mətnini (qəzəlləri) dəyişdirir, ifa zamanı hər dəfə müxtəlif avazlardan istifadə edir. Əlbəttə, bütün bunlar muğamın dramaturji inkişafına heç bir xələl gətirmədən çox təbii və professional səviyyədə yerinə yetirilir.

Adətən bir çox xanəndələr “Manəndi-müxalif”in ifasından sonra instrumental rəng verdikdən sonra “Mayeyi-Segah”-a keçid edirlər. Arif Babayev isə ifasında “Manəndi-müxalif”i kəsmədən, “Mayeyi-Segah”a keçid edir.

Mayədən sonra birinci rəngin verilməsi muğamın dramaturji inkişafının birinci mərhələsini tamamlayır. Rəngin diapozonu:



Bu hissənin enerji gücü bütün sonrakı inkişaf üçün bir mənbə, özəyə çevrilir. Rəngin bütün melodik inkişafı öz mənbəyini bu başlağıc xanələrdən götürür. Beləliklə melodik inkişaf növbəti mərhələdə sekvent şəkildə yönəlməsi üzrə hərəkət edir.

Ritmik baxımından təhlilə gəldikdə isə 8/6 ölçüdə verilən bu rəngdə əsasən səkkizliklərlə gedən hərəkətin, sinkopalı ritmin üstünlük təşkil etdiyini görürük. Melizmatik işarələrdən isə yalnız trellərə rast gəlinir.

Bu rəngin melodik quruluşu dəramədin xəttini davam etdirir.

## *Segah rəngi*




Muğamın yeni inkişaf mərhələsini "Zil segah" şöbəsi təşkil edir. Şöbənin əsas intonasiya məğzini mayə və əsas tonun üst kvintası arasında olan kiçik həcmli, danışıq tərzli oxuma təşkil edir. Bu şöbə muğamın dramaturji inkişafında mərkəzi hissələrdən biri kimi çıxış edir.

*Zil segah*



“Zil segah” şöbəsinin poetik əsasını isə xanəndə Əliağa Vahidin qəzəli təşkil edir. Rəməl bəhrində yazılmış bu qəzəl “Zil segah” şöbəsini bütövlükdə əhatə edir:

FA”iAatun fə”ilAtün fə”ilAtün fə”ilün
Neyləsin biçarə aşiq  yar əgər yar olmasa
Xarə yalvarmadı bülbül eşqi-gülzar olmasa.

Məstdir ol gül hələ qoy cövr qılsın bülbülə
Kimsə bilməz eşq dərdinə giriftar olmasa.

Burada rəməl bəhrinin təfiləlğrilə melodik deklomasiya arasında vəhdət özünü aydın göstərir.

Dəstgahın dramaturji inkişafının növbəti mərhələsini “Üst Segah” hissəsi təşkil edir. Bu şöbə demək olar ki, muğam dəstgahının əhval-ruhiyyəsini tam şəkildə davam etdirir:



Əvvəlki şöbədən fərqli olaraq burada tessitura bir qədər genişlənir və melodik hərəkətin muğamın zil pərdələrindən mayəyə doğru səsin ardıcıl sürüşməsi ilə enməsi müşahidə olunur. Burada xanəndə səs texnikasını ustalıqla nümayiş etdirir.



Bütün bunlardan sonra dəstgahın dramaturji inkişafının zirvəsini təşkil edən “Mübərriqə” şöbəsi səslənir. Burada xanəndənin səs aparatı bütün rəngarəngliyi ilə çıxış edir (trellər, forşlaq və s.). Şöbədə əsas dayaq pərdə - əsas tonun kvintası (do) olduğundan bütün melodik hərəkət onun ətrafında hərəkət edir.




Bu şöbə əvvəlki şöbələrdən fərqli olaraq muğamın daha yüksək zil pərdələrini əhatə edir. Xanənin bu zil pərdələri çox sərbəst və rahat götürməsi ifanı daha da möhtəşəm səsləndirir.




Beləliklə, bütün deyilənləri ümumiləşdirərək deyə bilərik ki, Arif Babayevin ifasında “Mirzə Hüseyn Segahı” muğam dəstgahı sevgi uğrunda cəfa çəkən, iradəli, mərd, əqidəsindən dönməz aşiqin inamlı hekayəsi kimi səslənir. Qeyd edək ki, xanəndə ifa etdiyi muğamlarda Qarabağ xanəndəlik məktəbinin ənənələrinə sadiq qalaraq öz səs imkanlarını nümayiş etdirməyə nail olmuşdur. Xanəndənin muğam ifaçılığında bütün səs texnikasından (sürüşmələr, zəngulələr) istifadə etməsi məhz onun yüksək xanəndəlik qabiliyyəti olduğunu sübut edir.

Arif Babayevi sevdirən təkcə ifaçılıq qabiliyyəti və səsi deyil. Həm də Azərbaycan xalq musiqisinə sədaqətlə, böyük həssaslıqla yanaşmasıdır. Çünki qərinələrin, əsrlərin, minilliklərin süzgəcindən süzülüb bu günümüzə gələn, ustadlarımızın qoruyub saxladığı belə sənəti ancaq mühafizə edərək, ifa edib gələcək nəsillərə

xələl gətirmədən çatdırmaq gərəkdir.

Arif Babayevin ifasında olan bütün muğamlar əsl tədris vəsaiti kimi, eyni zamanda gənc nəsil üçün, həm muğam ifaçılığı ənənələrini, həm səs tənzimlənməsi və hasil olması üçün böyük mənbədir. Onun ifasında "Zabul-Segah", "Rast", "Şur", "Çahargah", "Mirzə Hüseyn Segahı" və b. əsas muğamlar Azərbaycan Televiziya və Radiosunun qızıl fondunda qorunub saxlanılır. Eyni zamanda xalq artistinin 70 illik yubileyi münasibətilə Heydər Əliyev fondu onun ifasında olan muğam, təsnif və xalq mahnılarından, həyat və yaradıcılıq yolunu əks etdirən şəkillərdən ibarət kompakt diskini çap etdirmişdir.

1967-ci ildə çəkilmiş "Şur" muğamı televiziya filmində Arif Babayevin ifa etdiyi "Səmayi-şəms" zərbli muğamındakı "Hicaz" hələ çox-çox xanəndələr tərəfindən təkrarlanmağa çalışılacaq.

Bildiyimiz kimi, xanəndə muğamı ifa etdiyi zaman onu müşayiət edən instrumentalistlərdən çox şey asılıdır. Vacib şərtlərdən biri odur ki, xanəndənin yanında onu duyan, həssas, yaxşı müşayiətçi olsun. Xanəndənin muğam oxuması üçün mütləq tar və kamança olmalıdır. Arif Babayev həmişə görkəmli, onu duyan, hiss edən müşayiətçilərlə çiyin-çiyinə çalışıb. Əhsən Dadaşov, Hacı Məmmədov, Məmmadağa Muradov, Sərvər İbrahimov, Ramiz Quliyev, Ağasəlim Abdullayev, Vamiq Məmmədəliyev, Möhlət Müslümov, Elçin Nağıyev, Fəridə Məlikova və başqalarını misal göstərə bilərik.

Beləliklə, muğam Azərbaycan xalqının milli ruhunun iç dünyasını səslərdə əbədiləşən tarixidir. Və bu tarixdə Arif Babayevin klassik muğam ifası sahəsində qoyduğu böyük bir irs vardır. Ona görə də Arif Babayev hər zaman sevilib, sevilir və seviləcək.

## TƏSNİF YARADICILIĞI

Arif Babayevin bir professional muğam sənətkarı kimi çoxlarına məlum olmayan yaradıcılığı da var. O, həm gözəl muğam ifaçısı, həm bəstəkar mahnılarını özünəməxsus təfsiri ilə rövnəqləndirən müğənni, həm də mahir təsnif ustası kimi tanınmışdır.

Sənətkarın ifaçılığı, mahnı və təsnif yaradıcılığı da milli musiqimiz üçün eyni dərəcədə qiymətlidir. O, artıq professional muğam ifaçılığında məlum olan təsniflərə nəinki yeni rəng qatmış, həm də özü yeni-yeni təsniflərin yaratmasına səbəb olmuşdur.

Arif Babayev xalq mahnı və təsnif yaradıcılığını, xanəndələrin repertuarını onlarla yeni və gözəl nümunələrlə zənginləşdirmişdir. Bu mahnı və təsniflərini onun öz ifasından, yaşlı, orta və gənc nəsil xanəndələrdən dəfələrlə dinləsək də, təəssüf ki, müəllifin Arif Babayev olduğunu bilməmişik.

Qeyd edək ki, Azərbaycanın şifahi ənənəli professional musiqi ifaçıları olan ustad xanəndələrin böyük əksəriyyəti mahnı və təsnif yaradıcılığına malikdirlər. Məlum olduğu kimi, xanəndə yaradıcılığı şifahi ənənələr əsasında təşəkkül tapıb inkişaf etdiyinə görə, xanəndələr yaratdıqları təsnifləri konsertdə və ya məclisdə oxuyaraq dinləyicilərə təqdim edirlər, bundan sonra həmin təsniflər yaddaşlarda qalaraq, digər xanəndələrin də repertuarına daxil olur, oxunur və xalq arasında yayılır. Nəzərə alsaq ki, bütün xanəndələrin yaradıcılığı muğam və təsnif ifaçılığına əsaslansa da, çox az xanəndələr təsnif bəstəkarı kimi tanınmışlar. Bu sırada Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Xan Şuşinski, Mirzə Məhəmmədhəsən, Hacıbaba Hüseynov, Qulu Əsgərov, İslam Rzayev, Əbülfət Əliyev, Əlibaba Məmmədov, Arif Babayev və başqalarının adını çəkə bilərik.

Onların yaratdıqları, müəllifi olduqları mahnı və təsniflər isə zaman-zaman ifaçıların repertuarında oxunmuş, xalqın yaddaşına, qəlbinə əbədi yol tapmış və elə “xalq musiqisi” adı ilə də kitablara, not məcmuələrinə, tədris proqramlarına, repertuarlara daxil olmuş, lentə, disklərə yazılmışdır.

Bildiyimiz kimi, sovet dövründə xanəndələrin yaratdıqları təs-

niflər xalq mahnısı kimi təqdim olunurdu. Ona görə də bir çox təsniflərimizin müəllifləri bəlli deyil. Artıq müasir dövrdə isə səs yazı texnikasının inkişaf etməsi nəticəsində həmin təsniflərin müəllifləri tanınmağa başlamışdır.

Arif Babayevin xalq mahnıları, qədim təsnif və melodiyalar sahəsindəki axtarışlarını da xüsusi qiymətləndirmək lazımdır. O, "Qəmərim" mahnısını yenidən həyata qaytarmaqla onu özünəməxsus bir zövq və ustalıqla ifa edir. Ondan əvvəl bu mahnı ifa olunsa da, sonralar tamamən unudulmuşdur. Arif Babayev isə bu mahnıya yeni nəfəs verərək, yeni ştixlər, ifa çaları ilə zənginləşdirərək demək olar ki, yenidən "bərpa" etmişdir.

Qeyd etdiyimiz kimi, Arif Babayevin muğam yaradıcılığında təsniflər əsas yerlərdən birini tutur. Onun ifasında Azərbaycan təsniflərinin emosional təsiri daha güclüdür. Burada şirin, məlahətli səsdən başqa, onların ifası zamanı istifadə edilən mətnlərin yığılması, ifadəliliyi əsas şərtdir. Burada bayatılar, ayrı-ayrı sözlər, xalq deyimlərimiz, bir sözlə, folklorumuz bütün zənginliyi, rəngarəngliyi ilə təqdim olunur. Musiqimizin bu yığcam lakonik janrını ifa edən Arif Babayev maraqlı repertuarı, gözəl ifaçılıq manerası ilə geniş dinləyici kütləsini ələ ala bilir. Dinləyici tez bir zamanda onun ifaçılıq manerasının axınına düşür. Söz ahəngi, sözün daxili ritmi şirin məlahətli səsə, ifaya qarışanda güclü axına, həyat işığına çevrilir. Müğənni səsinin, ürəyinin çırpıntılarını böyük ustalıqla dinləyiciyə çatdırır.

Arif Babayev həm də 30-a yaxın mahnı və təsnifin müəllifidir. 2012-ci ildə xanəndənin mahnı və təsniflərinin bir neçəsi toplanaraq not məcmuəsi şəklində nəşr olunmuşdur. Məcmuə "Arif Babayevin mahnı və təsnifləri" adlanır. Sənətkarın müxtəlif illərdə yaratdığı mahnı və təsniflər Azərbaycan Milli Konservatoriyasının tədris işləri üzrə prorektoru, əməkdar müəllim, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Malik Quliyev və konservatoriyanın dosenti, əməkdar incəsənət xadimi, bəstəkar Faiq Nağıyev tərəfindən nota yazılmış və tərtib olunmuşdur. "Təhsil" nəşriyyatında nəfis şəkildə işıq üzü görən not məcmuəsinin redaktoru əməkdar müəllim, professor Rafiq Musazadədir. İşin məsləhətçisi isə

görkəmli muğam ifaçısı, xaq artisti, professor Mənsum İbrahimovdur. Nəşr Təhsil Nazirliyinin müvafiq əmrilə ali və orta ixtisas musiqi məktəbləri üçün dərs vəsaiti kimi təsdiq edilmişdir.

Dərs vəsaitinə Arif Babayevin bəstələrindən on mahnı və təsnif daxildir: "Eşqin göylərində uçan bir quşam" (söz. A.Cəfərovun), "Ey mənim məhəbbətim" (söz. R.Kərimlinin), "Gəl məni aldatma, gözəl bəxtəvər" (söz. C.Qaryağdıoğlunun), "Tar-kamanım, gəl-gəl", "Əzizinəm, çən düşməz", "Gəl-gəl, maralım, gəl", "Gəncədən fayton gəlir", "Qara telin incə belə", "Samovarın xəkəsi", "Yanıram eşq oduna, gəl" (sözləri xalq bayatısı). Mahnı və təsniflər Arif Babayevin ifasında Əhsən Dadaşovun və Ağasəlim Abdullayevin rəhbərliyi ilə xalq çalğı alətləri ansambllarının müşayiətindən, tarzən Əliağa Sədiyev və kamança çalan Xəyyam Məmmədovun müşayiətilə xalq artisti Zabit Nəbizadənin və gənc xanəndə Nasir Ətapurun ifasından nota yazılmışdır[22].

Məcmuədəki təsniflərin təhlili onu göstərir ki, xanəndənin çox sevdiyi "Segah" muğamı onun yaradıcılığında segah məqamının üstünlük təşkil etməsini şərtləndirmişdir. Bunlardan "Ay mənim məhəbbətim", "Gəl, gəl maralım gəl", "Gəncədən fayton gəlir", "Gəl məni aldatma gözəl, bəxtəvər", "Qara telin incə belə" sözləri ilə tanınan təsniflər xanəndələrin repertuarına "Segah təsnifləri" kimi daxil olmuşdur. Lakin bununla yanaşı, digər muğamlara əsaslanan təsniflər də məcmuədə yer almışdır. Belə ki, digər iki nümunə rast məqamına ("Eşqin göylərində uçan bir quşam" və "Əzizinəm çən düşməz"), üç nümunə isə şur məqamına ("Tar-kamanım gəl-gəl!", "Samovarın xəkəsi" və "Yanıram eşq oduna") əsaslanır. Məzmununa gəldikdə isə onu deməliyik ki, göstərilən təsniflər özlərinin melodik çalarlığı baxımından ehtiras, hicran və şikayət lirikası motivlərini əks etdirir. Təsniflərin sözlərindəki sadəlik, səmimilik, musiqinin lirikliyi dinləyicini düşünməyə, sevməyə səsləyir, insanın mənəvi dünyasını zənginləşdirir.

Poetik mətnə gəlincə isə onu vurğulamaq istərdik ki, 10 nümu-

[22]Abduləliyev A.Ə. Milli musiqi irsimizi zənginləşdirən qüdrətli sənətkar. // "Mədəniyyət" qəzeti,2012, 23 noyabr, s.7

nədən 7-sinin sözləri xalq bayatılarına aiddir. Digər üçünün müəllifləri isə Cabbar Qaryağdıoğlu, Arif Cəfərov və Rasim Kərimliyə məxsusdur.

Arif Babayevin mahnı və təsniflərinin nota yazılması sənətkarın müəlliflik hüququnun tanınması baxımından da əhəmiyyətlidir.

Sənətkarın təsnif janrının repertuarında müxtəlif xarakterli təsniflərə rast gəlmək olar. Onun təsnif ifaçılığı sahəsindəki uğurlarını işıqlandırmaq üçün bir neçə təsniflərini təhlilə cəlb etmişik.

## “Tar-kamanım gəl-gəl” mahnısı

Do diyez mayəli “Şur” muğamının “Dilkeş” şöbəsinə əsaslanan mahnının sözləri xalq bayatısından götürülmüşdür.

Bildiyimiz kimi, şur 7 əsas məqamdan biridir. 1+1/2+1formulu üzrə qurulmuş 3 bərabər tetraxordun qovuşuq üsulla birləşməsindən əmələ gələn “Şur” ruhi-təsir baxımından dinləyicidə şən, nikbin əhvali-ruhiyyə oyadır. Təhlilini verdiyimiz mahnıda da lirik, xoş əhvali-ruhiyyə hökm sürür.

Do diyez mayəli şur məqamının səs sırası:



Kuplet-nəqarət formasında yazılan mahnı tar və kamançanın ifasında 18 xanəlik instrumental girişlə başlayır. Həcmcə böyük olan giriş özündə bir cümləli period formasını birləşdirir. İki ibarədən ibarət cümlə ilk 8 xanədə $X_5$ sıçrayışı ilə başlayaraq sekvensiyavari hərəkətlə aşağıya doğru enir. Sekvensiyalarla aşağı düşən motivlər sanki zildən başlayaraq şüştər məqamının tamamlayıcı tonuna qədər enərək sözü xanəndəyə verir.

## *Tar - kamanım gəl-gəl*

**Musiqisi: Arif Babayev**
**Sözləri: Xalq bayatısı**



Kuplet də 1 cümləli periodu özündə təmsil edir. Üç oxşar ibarəni özündə birləşdirən cümlə mayədə başlayaraq mayənin üst mediantasına qədər qalxır. İlk iki ibarənin hər biri təkrar quruluşlu 4 xanədən ibarətdir. Üçüncü ibarə isə eyni melodik inkişafla başlasa da, sonda mayənin üst mediantasında liqalarla uzanaraq 5 xanəni əhatə edir (4x.+4x.+5x.).


Get-dim gör-dü-üm bu-laq - da-dır
Əl-ü-zü-nü-ü yu-maq - da-dır
Qo-şa xal-la-ar ya-naq - da-dı-ır
He - - - e - - - - y

Melodik baxımdan kuplet qalxan-enən hərəkətli olub, əvvəldə $x_4$ sıçrayışı edərək enən hərəkətlə yenidən mayəyə qayıdır, yəni tam kadansla tamamlanır. Burada təkrarlardan, predyomlardan (qabaqlamalardan) geniş istifadə olunub. Melizmatik işarələrdən isə yalnız trellərə rast gəlinir.

Ritmik baxımdan təhlilə gəldikdə isə 6/8 ölçüdə verilən mahnıda əsasən səkkizliklərlə gedən hərəkətin, sinkopalı ritmin üstünlük təşkil etdiyini görürük.

Kupletin ardınca gələn nəqarət də bir cümləli period formasındadır. 8 xanəni özündə birləşdirən birinci cümlə repriza vasitəsilə yenidən olduğu kimi səslənir. 4 motivdən təşkil edilmiş cümlədə ilk motiv melodik cəhətdən eynilik təşkil etsə də, sonrakı motivlər sekvensiyavari hərəkətlə aşağı enərək əsas tona gəlib çatır. Cümlə mayə ilə başlasa da, kupletdə olduğu kimi, $x_5$ yuxarı sıçrayış edərək mayənin üst kvintasına qədər gedib çıxır. Sonra isə sekvensiyavari melodik hərəkətlə aşağı enir.

Nəqarət ritmik və melodik baxımdan kupletlə eynilik təşkil edir.






İkinci kuplet öz melodik inkişafına görə birinci kupletdən kəskin fərqlənir. Belə ki, əsasən mahnılarda hər yeni kuplet birinci kupletin melodiyası üzərində oxunur. Burada isə fərqliliyin şahidi oluruq. Belə ki, burada ikinci kupletdə sanki mahnı kulminasiya nöqtəsinə gəlib çıxır. Mayənin üst mediantasından başlayan melodiya mayənin üst kvintasına qədər yüksələrək kulminasiyaya çatır. Sonra isə tədrici hərəkətlə aşağı enərək mayədə tam kadansla tamamlanır.

İki cümləni özündə birləşdirən period forması ikinci kupletin əsasını təşkil edir: a+b

a cümləsi 2 təkrar quruluşlu ibarədən ibarətdir: 4x.+5x. Amma ibarələr arası 3 xanəli instrumental hissə çalınır.






b cümləsi də 2 ibarəni özündə birləşdirir. Fərq bundadır ki, ibarələr arasında instrumental parça səslənmir. Maraqlı cəhətlərdən biri də odur ki, b cümləsində hər iki ibarə eyni melodik əsasa malik olsa da, birinci ibarə sekunda intonasiyaları ilə sekvensiyavari hərəkətlə aşağı enərək mayədə tamamlanırsa, ikinci ibarə birinci kupletin sonunda olduğu kimi, mayənin üst mediantasında yarım kadansla bitərək liqa ilə üç xanə uzanır və bu da yenidən nəqarətin gəlməsinə imkan yaradır.


ağ ö - ör - pə-yi - i - in O yan bu ya - nı - ı - na a - a - tar Kü - lək vu - ra - ar
ağ ö - ör - pə-yi - i - in O yan bu ya - nı - ı - na a - a - ta - ar he
e - - - y Tar ka-ma-nı ım gə-ə - əl gə-əl
pizz.

Ümumilikdə, mahnının diapazonu $k_7$ intervalı təşkil edir: $c^1$-$h^1$.

Tar və kamançanın ifasında səslənən instrumental partiyalar əvvəldən sona qədər mahnını müşayiət edərək, 6/8 ritminə xas müşayiətlə mahnını daha da rövnəqləndirir.

Poetik mətnə gəldikdə isə əvvəldə də qeyd etdimiz kimi, mahnının sözləri bayatı əsasında qurulmuşdur.

Heca: Kuplet – 8+8+8 hecadan ibarətdir:

Getdim-gördüm bulaqdadır,
Əl-üzünü yumaqdadır.
Qoşa xallar yanaqdadır, hey.

Nəqarət – 6+6+6+6 hecadan ibarətdir:

Tar-kamanım gəl-gəl,
Qaşı kamanım gəl-gəl.
Məhəbbətim gəl-gəl,
Səadətim gəl-gəl.

## “Gəl məni aldatma gözəl bəxtəvər” mahnısı

Sözləri görkəmli xanəndəmiz Cabbar Qaryağdıoğluna aid olan bu mahnı Arif Babayevin bəstələdiyi, xalq tərəfindən çox sevilən “Segah” muğamı üstündə yazılan ən məşhur mahnılardan biridir. Poetik mətnin quruluşunda bənd və nəqarət bölgüsü verilir:

Gəl məni aldatma gözəl, bəxtəvər,
Qaş-gözün oynatma gözəl bəxtəvər.

Mahnı 12 xanəlik tar və kamançanın ifasında səslənən girişlə başlayır. Giriş 2 təkrar quruluşlu cümlədən ibarətdir: $a+a_1$ (6x.+6x.). Lakin ikinci cümlə birincidən fərqli olaraq bir oktava aşağı səslənir.

Mahnının musiqi quruluşunda da kuplet formasının xüsusiyyətləri özünü göstərir. Melodiya üç xanəlik musiqi cümlələrindən ibarətdir. Hər cümlə bir misraya oxunur. Mahnının melodiyası re mayəli segah məqamına əsaslanır və onun quruluşunda məqamın istinad pillələri böyük rol oynayır.

## *Gəl məni aldatma gözəl bəxtəvər*

**Musiqisi: Arif Babayev**
**Sözləri: Cabbar Qaryağdıoğlu**



İnstrumental giriş mayədə tam kadansla tamamlandıqdan sonra xanəndənin ifasında mahnı səslənir. Kuplet-nəqarət formasında yazılan nümunə mahnı janrının lirik növünə aid olub, sevgi-məhəbbət hisslərini tərənnüm edir. Şən, yüksək əhvali-ruhiyyəli mahnı “Sehag”a xas olan intonasiyalarla verilərək sevən şəxsin daxili aləmini, onun saf, təmiz məhəbbətini əks etdirir.

Mahnının musiqi quruluşunda kuplet formasının xüsusiyyətləri özünü göstərir. Mahnının melodiyası re mayəli segah məqamına əsaslanır və onun quruluşunda məqamın istinad pillələri böyük rol oynayır.

Kuplet də oxşar quruluşlu iki cümlədən ibarət period formasını özündə ehtiva edir: a+a$_1$. Hər iki cümlə 6 xanədən, hər cümlə isə iki ibarədən ibarətdir. Mayənin üst kvartası ilə başlayan birinici ibarə mayədə bitir. İkinci cümləninn birinci ibarəsi birinci cümlənin birinci ibarəsi ilə melodik və poetik cəhətdən eynilik təşkil etsə də, ibarənin sonunda cüzi dəyişiklik özünü göstərir. Belə ki, burada yuxarıya doğru qalxan melodiya inkişaf edərək mayənin üst mediantasında tamamlanır. İkinci ibarələr isə hər iki cümlədə eyni olaraq verilir.

I cümlə a






II cümlə $a_1$







Beləliklə, ikinci cümlə mayədə tam kadansla tamamlanaraq yerini nəqarətə verir.

Nəqarət isə kulminasiyanı təşkil edir. Zil səsdən (si səsindən) başlanır və bu səsə istinad etməklə qurulur. Bu da melodiyanın kulminasiyasının bədii təsir gücünü artırmaqla, melodiyaya deklamasiya xarakteri aşılayır. Nəqarətdə istinad pilləsinin dəyişməsi rast məqamına keçid əmələ gətirir ki, bu da segaha əsaslanan melodiyalar üçün xarakterikdir.

Nəqarət sadə 2 hissəli formadadır. Quruluş formulası belədir:

A + B

$a+a_1$ b+b

I - A hissəsi 2 cümləli period formasındadır. Hər iki cümlə 6 xanəni özündə birləşdirir və hər biri 3 xanəlik iki ibarəyə bölünür. Mayənin üst kvartasında başlayan melodiyanın hər iki cümləsi mayənin üst kvintasının üst aparıcı tonu ətrafında gəzişərək ona istinad edən sekundalı intonasiyalar əsasında qurulmuşdur. Burada mayənin üst kvintasının üst aparıcı tonu nə qədər üstünlük təşkil etsə də, cümlənin sonunda mayənin üst mediantasına enmə özünü göstərir.





Birinci cümlə ilə ikinci cümlə arasında 6 xanəlik instrumental hissə səslənir. Belə ki, burada tar və kamançanın özünəməxsus improvizələri mahnıya xüsusi rəng qatır.







İkinci b cümləsi demək olar ki, birinci ilə eynidir, yalnız birinci ibarədə cüzi melodik dəyişiklik özünü göstərir.

II – B hisssəi də iki təkrar qururluşlu cümlə əsasında qurulmuşdur. Hər iki  cümlə mayənin üst kvintası ilə başlayaraq mayədə bitir. Əslində II hisssənin birinci cümləsindən sonra “Seqno” işarəsi qoyulub ki, bu da mahnının yeni kupletinin başlamasını göstərir. Amma axırıncı dəfə səslənmədə II – B hissəsinin ikinci cümləsi də səslənərək mahnı mayədə tam kadansla tamamlanır.



Melodik baxımdan təsnif qalxan-enən hərəkətlidir. Burada təkrarlardan, motiv sekvensiyalarından, predyomlardan istifadə edildiyini görürük. Sıçrayışlardan tersiya  və kvarta sıçrayışına rast gəlmək olur.

Melizmatik işarələrdən – trellərdən, forşlaqlardan mahnı boyu geniş istifadə edilib. Ritmik baxımdan isə 6/8 ölçüdə, nikbin əhvali-ruhiyyədədir. Əsasən onaltılıqlarla və səkkizliklərlə verilən melodiyada sinkopa və punktir ritmdən istifadə olunub. Diapazona gəldikdə isə qeyd etmək lazımdır ki, təsnifin diapazonu $k_7$ intervalını təşkil edir($d_1$-$c_2$).

Mahnının poetik mətni 11 hecadan ibarətdir.

### “Segah” təsnifi (“Gəl-gəl, maralım gəl!”)

Arif Babayevin sözlərini xalq bayatısından götürdüyü “Gəl-gəl, maralım gəl!” təsnifi re diyez mayəli segah məqamına əsaslanır. 15 xanəlik instrumental girişlə başlayan təsnif lirik, sevgi dolu əhvali-ruhiyyəlidir. Maraqlısı odur ki, kitabda olan digər təsnif və mahnılardan fərqli olaraq bu təsnifin instrumental girişi özü 3 xanəlik dəm səsi ilə başlanır. Ardınca tar və kamança cütlüyünin birgə ifası eşidilir. Yüksək registrdən başlayaraq motiv sekvensiyalarla verilən melodiya aşağıya doğru tədrici hərəkətlə enərək tam kadansla tamamlanır.

**“Gəl-gəl, maralım gəl!”**

Musiqisi Arif Babayevin,
sözləri xalq bayatısındandır.





Təsnif kuplet-nəqarət formasında yazılmışdır. Kuplet təkrar motivlərlə verilən bir cümlədən ibarətdir. 3 xanəni təşkil edən birinci ibarə 2 eyni motivdən təşkil edilmişdir. Ardınca 2 xanəlik instrumental hissə gəlir. Sonra ikinci ibarə eşidilir. Bu ibarə 4 motivdən ibarətdir. İlk iki motiv birinci ibarənin motivini olduğu kimi təkrar etsə də, sonrakı iki motiv sekvensiya vasitəsilə aşağıya doğru enir və mayədə tamamlanır. Birinci cümlə zildən başlayaraq, enən hərəkətlə fa diyez səsində – segah məqamının VI pilləsində dayanır ki, bu cür hərəkət xətti "Manəndi-müxalif" şöbəsi üçün səciyyəvidir.


16
Tan-rı mə-ni quş ey - lər Ya-ra-
pizz.
3
18
dıb gü - müş ey - lər
arco


14
Tan-rı mə- ni quş ey - lər Ya -ra -
pizz.




Nəqarət də iki ibarədən ibarətdir: 5x+6x. birinci ibarə mayənin üst mediantası ilə başlayaraq 3 təkrar quruluşlu motivdən ibarətdir. Hər motiv bir xanə yarım həcmindədir.

İkinci ibarə əvvəlki ibarənin 3 xanəsini eynilə təkrar etsə də, sonrakı 3 xanədə cüzi dəyişiklik özünü göstərir. Və nəhayət, nəqarət mayədə tam kadansla tamamlanır.


gəl - gəl, gəl - gəl, gəl, ma - ra - lım gəl! gəl, gəl - gəl, gəl - gəl,
4
1.
gəl, ma - ra - lım__ gəl! Dər - də ya - na - nım gəl!
6
2.
gəl, ma - ra - lım gəl! gəl,
2.




Melodik baxımdan təsnif qalxan-enən hərəkətlidir. Burada təkrarlardan, motiv sekvensiyalarından, predyomlardan istifadə edilmişdir. Sıçrayışlardan çox az istifadə olunub, belə ki, yalnız aşağı və yuxarı tersiya sıçrayışına rast gələ bilərik.

Mahnı boyu heç bir melizmatik işarələr nəzərə çarpmır. Ritmik baxımdan isə 8/12 ölcüdə, nikbin əhvali-ruhiyyədədir. Əsasən səkkizliklərlə verilən melodiyada sinkopa və punktir ritmdən istifadə olunub.

Diapazonu isə birinci oktavanın re səsindən ikinci oktavanın do səsinə ($d_1$-$c_2$) qədərdir.

“Gəl, gəl maralım” sözlü “Segah” təsnifində istifadə olan bayatılara diqqət yetirsək, aşiqin Tanrıya yalvarmasının, sevgilisini arzulamasını dilə gətirməsinin şahidi oluruq:

Tanrı məni quş eylə,
Yaradıb gümüş eylə,
Mən bu yoldan keçəndə
Yarı mənə tuş eylə.

Mahnının poetik mətni bayatıya xas olaraq aşağıdakı heca vəzninə uyğundur: kuplet: 7+7+7+7

Nəqarət: 10+10

Əlbəttə, biz kitabda olan 10 nümunənin hamısını təhlil etmək niyyətində deyilik, lakin təhlilini verdiyimiz üç nümunədən gəldiyimiz nəticə olaraq deyə bilərik ki, Arif Babayevin yaratdığı mahnı və təsniflər lirik xalq mahnı və təsniflərinin quruluş və musiqi dilinin xüsusiyyətlərini özündə cəmləşdirmişdir və xanəndənin yüksək istedadı sayəsində musiqi irsimizi zənginləşdirmişdir.

## PEDAQOJİ FƏALİYYƏTİ

Xanəndəlik sənətində mühüm əhəmiyyətli cəhətlərdən biri də muğamın qayda-qanunlarını dərindən bilən pedaqoq tərəfindən yeni ifaçılar nəslinin yetişdirilməsidir. Belə ki, muğam ifaçılıq sirlərinin klassik formada hafizələrdə qorunaraq, fərdi surətdə, yaddaş vasitəsilə gənc xanəndələrə ötürülməsidir. Bunu da xüsusi pedaqoji istedad və təcrübəyə malik olan xanəndələr həyata keçirilər.

Müasir dövrdə demək olar ki, əksər xanəndələr müəllimliklə məşğul olurlar – uşaq musiqi məktəblərində, musiqi kolleclərində, ali musiqi məktəblərində gənc nəsil xanəndələrin yetişdirilməsi prosesi gedir ki, bu da muğam sənətinin qorunub saxlanılmasına və ötürülməsinə xidmət edir. Buna görə də müəllimlik xanəndəlik sənətində ənənəvi olan vacib cəhətlərdən biridir. Hazırda müəllim kimi fəaliyyət göstərən xanəndələrdən biri də böyük sənətkarımız, professor Arif Babayevdir.

Keçmiş dövrlərdə ayrı-ayrı ustad xanəndələrin ənənələrinin ötürülməsi yeni nəslin yetişməsində mühüm əhəmiyyətə malik idisə, müasir dövrdə bu, əhatə dairəsini genişləndirmiş, təhsil sisteminə daxil olmuş və müəyyən dərəcədə kütləvi xarakter almışdır[23].

Beləliklə, ustad-müəllim münasibəti muğam sənətində əsas prinsiplərdən biridir və muğamın ənənəvi ötürülməsini təmin edir. Arif Babayevin də korifey xanəndə pedaqoqların – Seyid Şuşinskinin, Xan Şuşinskinin, Zülfi Adıgözəlovun, Mütəllim Mütəllimovun, Yaqub Məmmədovun və başqalarının ənənələrini davam etdirərək gənc nəslə ötürməsi bunun bariz nümunəsidir.

Ustad xanəndələrin muğam məktəbini keçmiş Arif Babayev sənət çeşməsindən bacardıqca faydalanmışdır. Onun yaradıcılıq simasının formalaşmasında dövrünün korifey sənətkarlar– Seyid Şuşunski, Xan Şuşinski, Zülfi Adıgözəlov, Bülbül, Mütəllim Mü-

---

[23]Əhmədov Ə.A. Müasir dövrdə Azərbaycanda xanəndəlik sənətinin inkişafı (1960-2010-cu illər). Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. B.: 2017, Bakı, 2017, 26 səh. (s.17)

təllimov və başqalarının böyük rolu olmuşdur.

Sənətdə ilk müəlliminiz kim olub? –soruşduqda Arif Babayev belə cavab verdi: "Bəylər, Bahadır, Məhəmmməd əmi kimi güclü xanəndələri ilk müəllimlərim hesab edirəm. Cabbar əmini görməmişəm. Xan əmi, Zülfi Adıgözəlov, Seyid Şuşinski, Mütəllim Mütəllimovun oxumalarından çox şey öyrənmişəm. Əsl sənət müəllimimi isə Seyid Şuşinskini hesab edirəm".

Seyid Şuşinski XX əsrdə Azərbaycan xanəndəlik sənətini inkişaf etdirərək daha da irəli aparmışdır. O, nadir istedada, geniş musiqi hafizəsinə və yüksək ifaçılıq mədəniyyətinə malik xanəndə olmuşdur. Bir çox muğamlara yeni guşələr, xallar əlavə edən, bir çoxlarını isə birləşdirib oxuyan novator sənətkar kimi tarixə düşmüşdür. Bunlardan "Rast-Hümayun", "Qatar-Bayatı", "Şur-Şahnaz" və s. göstərmək olar.

Görkəmli xanəndə Seyid Şuşinski mahir muğam ifaçısı olmaqla yanaşı, həm də məşhur pedaqoq kimi də şöhrət tapmışdır. O, uzun illər Bakı Musiqi Kollecində (Asəf Zeynallı adına musiqi texnikumu) müəllim kimi çalışaraq Azərbaycan xanəndələrinin böyük bir nəslini yetirmişdir. Onun yetirmələrindən – Sara Qədimova, Sabir Mirzəyev, Arif Babayev, İslam Rzayev, Süleyman Abdullayev, Baba Mahmudoğlu, Zeynəb Xanlarova və başqalarını göstərə bilərik.

Bilavasitə Seyid Şuşinski məktəbini keçən xanəndələrdən aldığımız məlumata görə ustad xanəndə özünəməxsus tədris metoduna malik olmuşdur. O, şagirdin muğamla tanışlığına "Bayatı-kürd"lə başlardı. Bu sadəcə tanışlıq deyil, həm də "Bayatı-kürd" muğamı vasitəsilə şagirdin səsinin açılmasına, tembrinin müəyyənləşməsinə kömək edən bir üsul idi. Dərs zamanı şagird bu muğamı cümlə-cümlə oxuduqca onun daxili ritmini, lad xüsusiyyətini yaxşı qavraması üçün Ağa (Seyid Şuşinski) əlini taktla masaya vururdu[24].

[24]Verdiyeva S.S. Azərbaycan xanəndəlik sənətinin inkişafında İslam Rzayevin rolu. Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işi. B.: BMA-nın kitabxanası, 2016, s. 20.

Bundan əlavə Seyid Şuşinski məlahətli səsə, ritm duyumuna, möhkəm hafizəyə, bir sözlə hərtərəfli istedada malik olan şagirdə qarşı çox tələbkar və ciddi münasibət bəsləyirdi. Belə şagirdlərə o, ildə beş muğam öyrətdiyi halda, səriştəsi az olan gənclərə muğamın ümumi qaydalarını öyrətməklə ildə bir-iki dəstgahı tədris edirdi.

Seyid Şuşinskinin sinfində oxumaq, ustad sənətkardan muğamın incəliklərini öyrənmək hər bir gənc xanəndə üçün böyük məktəb idi. O, dərs prosesində hər bir muğamı ayrıca təhlil etməklə yanaşı, xanəndənin səsindən istifadə üsullarını da açıqlayırdı. Ustada görə müğənninin ən böyük xoşbəxtliyi boğazının "təmizliyini" qoruyub saxlaya bilmək bacarığı idi. Səsin yüksəyə qaldırılması, aşağı registrdəki şirin xırdalıqlar, boğazda qaynatmalar boğaz-nəfəs yollarının tam sağlamlığını tələb edirdi. Ona görə də səsin keşiyində sayıqlıqla durmaq xanəndəliyin ən vacib şərtlərindən biridir.

Seyid Şuşinskinin qiymətli tövsiyələrindən biri də yaddaşın itiliyinin qorunmasından ibarət idi. Onun fikrincə, "yaddaşsız müğənni oxumaqdan əl çəkməlidir". Bunun üçün ustad ən əvvəl şagirdlərinə əruz vəznini, onun bəhrlərini öyrədirdi. Sonra avazla klassiklərdən qəzəllər, əruzda olan şeirlər oxuyurdu. Muğama başlamazdan əvvəl poetik mətnin bütün incəliklərini araşdıran xanəndə öz tələbələrinə də "hər sözə, hər ifadəyə diqqətli olmağı, doğru-düzgün ritmdə deyilişinə, məna çalarlarının poetik səslənməsinə" fikir verməyi tövsiyə edirdi. Tədqiqatçı Vaqif Məmmədovun verdiyi məlumata görə, Seyid Şuşinski "klassik poeziyamızı, həmçinin Füzuli yaradıcılığını ədəbiyyatşünas zövqü ilə təhlil etməyi bacarırdı. O, şairin hansı şeirlərini hansı muğamlarda oxumağın mümkünlüyü barədə də maraqlı fikirlər söyləyirdi... Şair təxəyyüllü müğənni tədris etdiyi muğamlarda ifa olunan sözləri tələbələrə qabaqcadan yazdırar, həmin parçaları əzbərlədəndən sonra muğamın məşqinə başlardı... O, şeiri tələffüzlə əzbər deyər, tələbələrini də belə öyrədərdi"[25].

---

[25]Verdiyeva S.S. Azərbaycan xanəndəlik sənətinin inkişafında İslam Rzayevin rolu. Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işi. B.: BMA-nın kitabxanası, 2016, s. 47.

Beləliklə, Seyid Şuşinski ənənələrini davam etdirən Arif Babayevin sənət zirvəsini fəth etmiş yüksək səviyyəli professional ifaçılığı Azərbaycan milli musiqisi üçün həm də onunla qiymətlidir ki, sənətkarın üslubu, yolu, repertuarı qədim Qarabağ muğam məktəbini, bu məktəbin möhtəşəm, dəyərli, özünəməxsus ənənələrini yaşadır, gənclərə öyrədir.

Hər bir sənətdə olduğu kimi, oxumağın da öz texnikası var: nəfəsalma, tələffüz, temp və ritm təmizliyi, səsin sözlə əlaqəsi, fikrə uyğun dəyişməsi və s. Qəzəllərin seçilərək düzgün öyrədilməsi, sözlərin düzgün tələffüzü, əruz vəzninin qanunauyğunluqları, qavalla özünü müşayiət və qavalda çalmağın öyrədilməsi, düzgün oturuş qaydası, səhnə davranışı – bütün bunlar ümumuilikdə bir kompleks təşkil edir ki, bunları eyni vaxtda tələbəyə aşılayaraq, hətta oxuyan zaman ağızın düzgün açılması (artilkulyasiya), ifa zamanı musiqiyə uyğun üzün, sifətin mimikası və cizgiləri gözlərin açıq qalması kimi elementləri – nöqsana qədər tələbələrə açıqlamaq, öyrətmək əlbəttə ki, böyük zəhmət və səbrin hesabına başa gəlir. Sənətkarın şəxsiyyəti, davranışı, auditoriya qarşısında özünü idarə etməsi onun daxili zənginliyinin göstəricisidir.

Xanəndəlik sənətinin tədrisində qədim dövrlərdə olduğu kimi, bu gün də ustadların ənənələrinin mənimsənilməsi böyük əhəmiyyətə malikdir. Hər bir gənc ifaçı müəllimin – ustadın rəhbərliyi altında formalaşır, sənətin sirlərini öyrənir, təkmilləşir. Məhz muğam sənətində inkişafın əsasını da ötürülmə təşkil edir. Arif Babayev də yüksək əxlaqi dəyərlərə malik olan peşəkar müəllim kimi bütün bilik və bacarıqlarını gənc musiqiçi kadrların hazırlanması işinə yönəltmişdir və bu işdə də böyük nailiyyətlər əldə etmişdir. Ustad-şagird ənənəsi haqda Arif müəllimin dedikləri: "Ən böyük məktəb gör-götür aləmidir. Qədimdə məclislər qurulardı, bu məclislərdə muğamlar oxunardı. O zamanlar indiki kimi texniki imkanlar yox idi. Qulaq asar, nəyi bilmirdiksə, oradan götürərək öyrənərdik. Bunun üçün zəka, ağıl lazım idi.

32 Bakı kəndi bizə böyük bir məktəb olub. Mən Qarabağ muğam məktəbində görüb-eşitmədiklərimi burada öyrənmişəm. Orada sağlam rəqabət vardı. Hər kəs daha yaxşı oxumağa can atırdı,

bilmədiklərini öyrənməkdən çəkinmirdilər. Məsələn, Nardaranda məclislər qurulurdu. Burada ən azı 10 xanəndə – mən, Ağaxan Abdullayev, Əlibaba Məmmədov, Hacıbaba Hüseynov, Dağlı Ağababa Novruzov kimi sırf xanəndələr o məclisə yığışardıq. Mən hansısa muğamı oxumaqda tərəddüd edirdimsə, orada onların ifasından öyrənir, eləcə də onlar mənim və ya digərlərinin ifalarından bəhrələnərək mükəmməl ifaya malik ola bilirdilər. Bəzən səndən aşağı səviyyədə oxuyan xanəndə hansısa şöbəni çox mükəmməl ifa edə bilər və sən onu görüb-götürərsən. Bu baxımdan muğam ifaçılıq sənətində gör-götür aləmi birincidir. İndi səsyazma aparatları tələbələrin işini həddindən artıq yüngülləşdirib. Yazır, evə aparır, rahatca qulaq asıb öyrənirlər. Bu gün əgər hansısa tələbə muğamı yaxşı oxuya bilimirsə günah onun özündədir. Biz tələbə ilə dərs zamanı muğamın, bir növ, skeletini, yəni bütün şöbə və guşələri haqda ona məlumat verir, öyrədirik. İstedadlı tələbə bütün bunları götürüb oxumalıdır. Onun öz səs və zehni imkanları buna yol vermirsə, müəllimin əziyyəti heçə gedə bilər. Yəni hər şey müəllimlə yanaşı, tələbənin özündən də asılıdır".

Bir tədris ili ərzində tələbəyə neçə muğam öyrədirsiniz? – sualına Arif müəllim belə cavab verdi: "Əlbəttə, biz proqram əsasında dərs keçirik. Bir il ərzində 2 muğam dəstgahı, bir zərbli muğam keçilir. Əlbəttə, əgər tələbənin istedadı daha artığına imkan verirsə, bu proqramı genişləndirmək də olar".

Arif Babayevin yetişdirdiyi artıq məşhur muğam ifaçıları onu çox tələbkar və ötkəm bir pedaqoq kimi tanıyırlar. Lakin bununla belə, onun hər bir tələbəyə qarşı diqqətli və qayğıkeş olması, hərəyə ayrıca fərdi münasibəti də gözdən qaçmır. Belə ki, bütün muğamları tədris edən ustad tələbələrinə hərəsinin öz tembrinə, boğazının gücünə uyğun muğam, təsnif seçib hazırlamasına da göstəriş verir. Seçilən hər bir muğam üzərində xırdalıqla işləyir. Bəzən fikrini daha aydın anlatmaq üçün adları bu və ya digər muğamın ifası ilə bağlı xanəndələrin həyat və yaradıcılığından, oxuma tərzindən müqayisəli söhbət açır, dərin nəzəri təhlil-tədqiq edərək sadə şəkildə tələbəyə çatdırır.

Arif Babayevin bir pedaqoq kimi fəaliyyətini dəyərləndirərkən qeyd etmək lazımdır ki, öncə xanəndə uzun illər böyük sənətkarlardan öyrəndiklərini və topladığı sənət təcrübəsini 1982-ci ildə Bülbül adına Orta İxtisas Musiqi Məktəbində ilk muğam müəllimi kimi çalışmağa başlayıb. Daha sonra – 1984-cü ildə ilk muğam müəllimi kimi Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasına (indiki Bakı Musiqi Akademiyası) işə qəbul olunub. 1984-cü ildə Konservatoriyada yeni açılmış “Muğam” kafedrasına müdir təyin olunaraq burada uzun illər çalışmışdır. Pedaqoji fəaliyyəti dövründə tədris planına uyğun olaraq sanballı proqramlar tərtib etmiş və həmin proqrama uyğun olaraq “Muğam ifaçılığı” fənni üzrə bu günə qədər dərs aparılır. Bundan əlavə o, dərs proqramları ilə yanaşı, bir neçə metodik tövsiyələr də hazırlayıb. Bu da bir çox gənc, istedadlı, muğamı öyrənmək istəyən ifaçılar üçün lazımı vəsaitdir. 1994-cü ildə nəşr olunmuş “Rast dəstgahı və onun xanəndə yaradıcılığında ifasına dair” metodik tövsiyəsi buna bariz nümunədir.

2001-ci il 10 avqust tarixində Ulu öndər Heydər Əliyevin sərəncamı ilə “Azərbaycan Milli Konservatoriyası” yaradılmışdır. Həmin ildən konservatoriyada ilk olaraq “Muğam (xanəndə)” kafedrası açıldı. Arif Babayev “Muğam (xanəndə)” kafedrasının müdiri vəzifəsinə təyin edildi və bu günə qədər həmin vəzifəni şərəflə yerinə yetirir. Bununla bərabər, pedaqoji fəaliyyətindən bir an da olsa belə ayrılmayıb və bu günə qədər davam etdirir.

Arif Babayev böyük sənətkar, səmimi bir insandır. O, özünəməxsus keyfiyyətləri ilə seçilən xanəndədir. Muğam sənətində qazandığı uğurları Azərbaycan musiqi mədəniyyətinin inkişafında muğam sənəti və milli ifaçılıq tarixində, püxtələşmiş kamil xanəndələrin yetişdirilməsində öz məktəbini yaratmışdır. Bu məktəbdə neçə-neçə görkəmli xanəndələrin yetişməsinə səbəb olmuşdur.

Arif Babayev böyük müəllimdir. O, 40 ildən artıq pedaqoji fəaliyyət göstərdiyi bir dövrdə ifaçılığın ənənələrini, muğamın dərin məziyyətlərini gənclərə öyrətmiş, professional muğam sənəti üçün onlarla gənc istedadlı ifaçı yetişdirmişdir. Onun yetirmələrinin əksəriyyəti respublikamızın tanınmış, adlı-sanlı xanəndələri-

dir. Arif Babayevin "Xanəndəlik" ixtisası sinfini bitirən məzunları artıq böyük sənət yolunda püxtələşmiş istedadlı xanəndələr kimi tanınır, sevilirlər. Onların müxtəlif festival və müsabiqələrdə qazandıqları uğurlar, milli musiqimizi respublikada və xaricdə təbliğ etmələri hər birimizi, ilk növbədə isə, tələbələri üzərində böyük zəhməti olan ustadı qəlbən sevindirir.

Yeni-yeni ifaçılar aşkar etmək üçün sənətkar daha ciddi addımlar atmışdır. Belə ki, muğam layihələri hazırlanarkən Arif Babayev birincilərdən biri oldu ki, öz tələbələri ilə bir neçə muğamların böyük konsert salonlarında canlı ifası, onun rəhbərliyi ilə kompakt disklərin buraxılması böyük xidmətlərin təqdirəlayiq halı idi.

Heydər Əliyev fondunun təşəbbüsü ilə 2009-cu il 18-25 mart tarixində Bakıda ilk dəfə keçirilən "Muğam Dünyası" Beynəlxalq musiqi festivalında Arif Babayevin də xidmətləri böyük olmuşdur. Məhz həmin festivalın münsiflər kürsüsündə üzv kimi iştirak etmiş və əlindən gələni əsirgəməmişdir. Bundan başqa, Azərbaycan Respublikasının Muğam Mərkəzində keçirilən müsabiqələrdə bir münsif kimi daha çox gənc muğam ifaçılarının meydana çıxarılmasında da mühüm rolu olmuşdur. Məhz onun, eləcə də respublikamızın xalq artistləri – Əlibaba Məmmədovun, Səkinə İsmayılovanın, Mənsum İbrahimovun və başqalarının əvəzsiz əməyinin sayəsində Azərbaycan muğamına Təyyar Bayramov, İlkin Əhmədov, Babək Niftəliyev, Güllü Muradova, Etibar Hüseynov, Səbinə Ərəbli, Vəfa Orucova kimi gənc ifaçılar yol tapdılar. Demək olar ki, Respublikamızda keçirilən muğam müsabiqələrin hamısında, münsiflər heyətinin tərkibində Arif Babayev fəal iştirak etmiş və müsabiqələrin hər birində xanəndənin tələbələrinin müvəffəqiyyətlə çıxışı dinləyicilər tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

Beləliklə, sənətkar bu gün də bir pedaqoq kimi, Azərbaycan Milli Konservatortiyasının professoru kimi gənc xanəndələrin yetişməsində və onların təkmilləşməsində böyük əmək sərf edir. Muğamlarımızı, təsniflərimizi məlahətli səslər ilə ifa edən xanəndələrimizin hər birinin yetişməsində Arif müəllimin böyük zəhməti, əməyi olmuşdur.

40 ildən artıq pedaqoji fəaliyyəti olan xanəndə korifey sənət-

karlardan öyrəndiklərini tələbələrə aşılamağa çalışıb. Səsi olan, muğam ifa etməyin sirlərini öyrənmək istəyən gənclərdən heç nəyi əsirgəməyib, onlara övladları, nəvələri kimi qayğı göstərməyə çalışıb. Tələbələri söyləyir: Arif müəllim bizi kədərli görəndə dərdimizə şərik çıxıb, tövsiyələrini verir, problemlərimizi bacardığı qədər həll edir...[26].

Arif Babayev ümumiyyətlə çox tələbkar müəllimdir. O tələbələri ilə kollektiv şəkildə məşğul olur. Dərsə, çəkilişə hər zaman tələbələrindən öncə gələr ki, özü də gənclərə bir örnək olsun. Ona fərdi yanaşıb nəsə soruşduqda, onları məmnuniyyətlə başa salır və izah edir. Ən çox tələbi muğamı öyrənməklə bərabər, qəzəl seçib onu mükəmməl əzbərləmək və hər bir qəzəli muğamın xarakterinə uyğunlaşdırmaqdır. Onlardan məsuliyyətli, diqqətli olmağı tələb edir. Xanəndə tələbələrinə deyir: "Öyrəndikləriniz təkcə özünüzə görə deyil, həm də gələcəkdə muğamı yaşatmaq üçündür". Göründüyü kimi, Arif Babayevin Azərbaycanın nadir incisi muğama qarşı olan məhəbbəti danılmazdır və buna görə də öz tələbələrinin inkişafına məhz bu cür yanaşır.

Pedaqoji fəaliyyətdən danışdıqda xanəndə Arif Babayevlə 40 ilə yaxın bir vaxt ərzində eyni otaqda, tələbələrlə çalışan konsertmeystrləri də qeyd etməmək olmaz. Onların da bu sənətin inkişafında böyük xidmətləri olmuşdur. Əlbəttə, Arif Babayev 40 il ərzində bir neçə məşhur musiqiçilərlə işləyib. Onlardan xanəndə ilə bərabər, ən azı 30 il çiyin-çiyinə çalışan, muğamın bütün incəliklərini gələcək nəslə çatdıran mükəmməl tar ifaçısı, "İnstrumental muğam" kafedrasının baş müəllimi Elçin Nağıyev və kamança ifaçısı "İnstrumental muğam" kafedrasının dosenti, əməkdar artist Fəridə Məlikovadır. Uzun illər boyu eyni konsertmeystrlə bir xanəndənin yanında çalışmaq hər musiqiçiyə nəsib olmur. Bu da Arif müəllimin böyüklüyünün bariz nümunəsidir.

Bu günə qədər Arif Babayevlə birlikdə durmadan çalışan, ustad qədər tələbələrin üzərində zəhməti olan Elçin Nağıyevin sölə-

[26]Abdullayev A.Milli musiqi irsini zənginləşdirən qüdrətli sənəkar. // "Mədəniyyət" qəzeti, 1 mart 2014, səh.7

dikləri: “Arif Babayevlə çalışdığım ilk anlarda yalnız muğamları mükəmməlləşdirmədim, ondan işə dəqiq vaxtında gəlib-getməyi, işə doğru münasibəti, vicdanla yanaşmağı, ciddiliyi öyrəndim. Dərs dediyi tələbələrdən əlavə Arif müəllimin sinfinə sənət öyrənmək, təhsil almaq istəyənlər gəlirdilər. O, heç kəsə biganəlik göstərmir, hamıya düz istiqamət verir. Buradan onun necə böyük bir şəxsiyyət, ustad xanəndə və yüksək səviyyəli pedaqoq olduğu bir daha aydın şəkildə görsənir. O, mükəmməl ustad xanəndə, ciddi pedaqoq, məsuliyyətli müəllimdir. Dərs prosesində tələbələrinin ifasını səbirlə dinləyər və onların qüsurlarını həmin anda ustalıqla aradan qaldırır. Hər tələbənin səsinə uyğun muğam verir və bir dəstgahı bitirmədən digərinə keçmir. Bundan əlavə ustad qəzəlləri hər zaman xüsusi qaydada seçir. Həmişə də Azərbaycanın klassik şairlərindən – Hafiz Şirazinin, Sədi Şirazinin, Nizami Gəncəvinin, Xurşidbanu Natəvanın, Məhəmməd Füzulinin, Qasım bəy Zakirin, Seyid Əzim Şirvaninin, Əliağa Vahidin qəzəllərindən daha çox istifadə edir. Tələbələrə göstərdiyi ciddi münasibətilə yanaşı, onlara qarşı çox qayğıkeşdir. Kollektiv şəkildə dərs keçsə də hər tələbə ilə fərdi danışıq aparır, onun problemini həll edir”.

Arif Babayevlə birgə çalışan digər konsertmeystrdən biri də kamança ifaçısı, əməkdar artist Fəridə Məlikovadır. Fəridə xanımın Arif Babayev haqqında söylədikləri: “Ustad xanəndənin muğamı öyrənmək istəyən gənclərin üstündə əməyi böyükdür. Arif müəllim hər zaman nəinki dərsə, hətta çəkilişlərə də tələbələrdən öncə gəlir. O, mükəmməl bir muğam bilicisi, ustad xanəndə, Azərbaycan Qarabağ muğam məktəbinin layiqli davamçısıdır. Mən hər zaman fəxr hissi ilə tələbələrlə birgə auditoriyaya daxil olmuşam, onun muğam haqqında söylədikləri məsləhət və tövsiyələrindən bir konsertmeystr kimi layiqincə faydalanmışam” .

Arif Babayev yüzlərcə tələbələr yetişdirmişdir. Onun yetirmələri olan gənc xanəndələr dünyanın müxtəlif bölgələrində məharətlə muğamımızı, xalq mahnılarımızı təmsil və tədqiq edirlər. Bu da ustad xanəndə üçün böyük bir fəxr hissidir. Bunların içərisində böyük fəxrlə – Aygün Bayramova, Nəzakət Teymurova, Gülüstan Əliyeva, Firuz Səxavət, Səbuhi İbayev, Cabir Abdullayev, Vüqar

Əliyev, Qəzənfər Abbasov, Qoçaq Əsgərov, Ehtiram Hüseynov, Könül Xasıyeva, Könül Kərimova, Elçin Cəlilov, İlahə İbadova, Sevinc Sarıyeva, Nəzər Bəylərov, Almaz Orucova, Zümrüd Məmmədova, Zakir Əliyev, Səkinə Şamilova, Vaqif Şıxəliyev, Ariz Hüseynov, Vüsal Zamanov, Gülay Zeynalova, Gülbəs Kərimova, Gülnar İbrahimli, Natəvan Hüseynova, Şahmar Hacıyev, Mustafa Mustafayev, Miryusif Miryusifov, Xəlil Qaracöp və başqalarını qeyd edə bilərik. Bütün bunlar Azərbaycan muğamının və xalq musiqisinin inkişafında Arif Babayevin rolu və əhəmiyyətinin nədən ibarət olduğunu bir daha sübut edir.

Əlbəttə, muğamı öyrənmək istəyi tək bizim Azərbaycan gənclərinin deyil, bir çox xarici ölkələrdən gələn gənclərin də diqqət mərkəzindədir. Azərbaycan muğamına, eləcə də musiqisinə nə dərəcədə vurğunluğunu, məhəbbətini, doğmalığını bildirən bir çox əcnəbi gənclər də məhz Arif Babayev məktəbinə üz tuturlar. Onlardan Kazim Behini (Kanada), Səraslan (İran), Davud İclalı (İran) və başqalarının adını qeyd etmək olar.

Bu gün Azərbaycan Milli Konservatoriyasının "Muğam (xanəndə)" kafedrasının bütün məzunları Arif Babayev kimi korifey xanəndənin tədris metodikasını öyrənməli və onu öz gələcək tədris metodikasına çevirməlidirlər. Müəllimlik vəzifəsi daşıyan hər bir gənc xanəndə korifey sənətkarın pedaqoji fəaliyyətindən bacardıqca faydalanmalıdır.

Onun tərtib etdiyi muğam ifaçılığına aid olan bir neçə proqram və metodik tövsiyələrdən demək olar ki, bütün kafedranın muğam müəllimləri tərəfindən istifadə edilir və öz metodik praktikalarında tədbiq edirlər. Arif müəllimin tərtib etdiyi bu proqramlar nəinki Azərbaycan Milli Konservatoriyasında, eləcə də digər ali və orta ixtisas musiqi məktəblərində də tədbiq edilir.

Azərbaycan muğam sənəti sahəsində Arif Babayev məktəbi var və bu böyük məktəbdə istedadlar axtarılır, gənc ifaçılar muğam ustası kimi yetişdirilir. Muğamları, xalq mahnılarını unutmağa qoymayan, onlara yeni nəfəs, yeni həyat verən sənətkarın Azərbaycan incəsənətindəki fəaliyyəti əsrlər, nəsillər dəyişsə də yaddan çıxan deyil...

# MUĞAMIN DÜNYA SƏHNƏLƏRİNDƏ TƏBLİĞİNDƏ ARİF BABAYEVİN ROLU

Əgər bir qədər tarixi keçmişə ekskurs etsək görərik ki, Şərq ölkələri ilə biz azərbaycanlıların sıx iqtisadi əlaqələrindən başqa, həm də mədəni əlaqələri də olmuşdur.

Xalqımızın bir çox nümayəndələri vaxtı ilə İstanbul, Təbriz, Tehran və b. şəhərlərdəki elm ocaqlarında təhsil alıb, milli mədəniyyətin tərəqqisində yaxından iştirak etmişlər. Qarabağın, Abşeronun, Şirvanın və Gəncənin musiqiçiləri, adlı-sanlı ifaçıları bu ölkələrin ən mötəbər məclislərində iştirak ediblər. Onların ifaçılıq məharəti uzun müddət sənətsevərlərin diqqət mərkəzindən, təhlil və müzakirə obyektindən yayınmayıb. Deməli, Azərbaycan musiqisinin bu ölkələrdə belə doğma və hərarətlə qarşılanması o qədər də təəccüblü deyildir. Çünki bu ölkələrin xalqları ilə dil və mədəniyyət yaxınlığımız vardır.

Ötən əsrin 70-ci illərinə nəzər salsaq görərik ki, Azərbaycan xalqının milli-mədəni irsi olan muğamı, xalq mahnılarının qorunması, inkişafı və təbliği, gələcək nəsillərə ötürülməsi məhz xanəndələrin boynuna duşürdü. Bu işdə Arif Babayevin böyük xidmətləri olmuşdur. Arif Babayev Azərbaycanın milli sərvəti olan muğamı bütün dünyada tanıdan və səsləndirən sənətkarlardan biridir. O, bu sənətin gələcək nəsillərə çatdırılması üçün var qüvvəsilə çalışmışdır. Azərbaycan muğamının nəinki Respublikamızda, həmçinin, bütün dünyada təbliğatçısı kimi fəaliyyəti diqqəti cəlb edir.

Bir müddət xalq mahnılarına, muğamlara qarşı olan laqeydliyin hökm sürdüyü zamanda belə Arif Babayev digər xanəndələr kimi, öz dəst-xəttindən, avazından bir an olsa da çəkinməmişdir. Xalqın tükənməz mənəvi sərvəti olan muğamını, xalq musiqisini mühafizə etmək hər bir sənətkarın mənəvi borcudur. Bu missiyanı Arif Babayev layiqincə yerinə yetirib.

Bildiyimiz kimi, ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə başqa sənət sahələri ilə yanaşı, Azərbaycan musiqi mədəniyyətinin inkişafına da böyük diqqət və

qayğı ilə yanaşmışdır. İncə və həssas musiqi duyumuna, musiqi zövqünə malik olan, Azərbaycan və dünya musiqisininin bədii nümunələrini həvəslə dinləyən, daim musiqiçilərlə dostluq edən bu insanın həyat və fəaliyyətini musiqi incəsənətindən ayrı təsəvvür etmək qeyri mümkündür. Onu musiqi mədəniyyətinin bütün çağdaş və aktual məsələləri, musiqiçilərin problemləri, fikir və təklifləri, uğurları daim maraqlandırmışdır.

1969-cu ildə respublikaya siyasi rəhbərlik edən Ulu öndər Heydər Əliyevin uğurlu fəaliyyəti bir çox sənət adamlarının inkişafı üçün böyük imkanlar açmışdır. Onun bu sahədə apardığı uğurlu siyasəti incəsənət, o cümlədən musiqi xadimləri ilə yanaşı, Azərbaycanın milli sərvəti sayılan muğamın, xalq mahnılarının qorunub saxlanılması işində də böyük inkişafa gətirib çıxartmışdı. Onun göstərdiyi qayğı və himayədarlığı nəticəsində Azərbaycan milli musiqisi yüksək nailiyyətlər qazanmışdır. Bütün bunlarla yanaşı, xalq musiqisinin və muğamların qorunması və öyrənilməsi sahəsində hər bir sənət adamına geniş şərait yaratmışdır. Xüsusən də, tədbirlərin keçirilməsinə böyük önəm verən Ulu öndər Heydər Əliyev ölkələr arasında dostluq və mədəni əlaqələrin möhkəmlənməsində qastrol səfərlərini yüksək dəyərləndirirdi.

Azərbaycan incəsənət xadimləri, o cümlədən muğam ifaçıları dünyanın bir çöx ölkələrində ölkəmizin musiqisini təbliğ etmək missiyasını yerinə yetirirdi. Bu işdə də xanəndələrin rolu xüsusilə əlamətdar olmuşdur. Məhz həmin dövrdə Arif Babayev də dəfələrlə qastrol səfərlərinə yollanmış, 60-dan çox ölkədə qastrol səfərində olan xanəndə muğamlarımızın, milli musiqimizin təbliğində, sevilməsində çox böyük xidmətlər göstərmişdir.

Ötən əsrin 60-70-ci illərindən etibarən Arif Babayev on minlərlə tamaşaçı qarşısında məharətlə çıxışlar etmiş və xalqın məhəbbətini qazanmışdır. Keçmiş ittifaqın bütün respublikalarında – Moskva, Peterburq, Alma-ata, Kiyev, Daşkənd, Tiflis və s. şəhərlərində Azərbaycan musiqisini ləyaqətlə təmsil etmişdir. Müxtəlif vaxtlarda öz həmkarları – Hacı Məmmədov, Əhsən Dadaşov, Habil Əliyev, Elman Bədəlov, Ağasəlim Abdullayev, Vamiq Məmmədəliyev, Möhlət Müslümov ilə dəfələrlə konsertlərdə parlaq

sənət nümunələri yaratmışdır.

Xanəndə ABŞ, Türkiyə, Fransa, İsveçrə, İtaliya, Danimarka, Malta, Əfqanıstan, Finlandiya, Tunis, Əlcəzair, Misir, İran və s. xarici ölkələrdə də layiqli çıxışlarla vətənini təmsil etmişdir. Muğamlardan, təsniflərdən, xalq və bəstəkar mahnılarından hörülmüş musiqi çələngini xaricilərə ərməğan aparmışdır.

Dünyanın bir sıra tanınmış mətbuat orqanları – qəzetlər, jurnallar onun sənətindən ürək dolusu yazılarlarla çıxış etmişlər. O, xarici ölkələrdə verdiyi konsertlərdə "Rast", "Şur", "Çahargah", "Mahur-hindi", "Zabul segah", "Hümayun", "Bayatı-Şiraz" muğamlarını, təsniflərini, "Tar kamanım gəl", "İrəvanda xal qalmadı", "Qarabağ şikəstəsi", "Apardı sellər Saranı", "Qəmərim", "Evlərinin dalı qaya", "Qoy yarım gəlsin, ay nənə" və digər xalq mahnılarını ifa edərək Azərbaycan milli musiqisini dünyada tanıtdırmağa qadir olmuşdur. Konsertdən sonrakı görüşlərin birində, daha dəqiq desək, Cenevrə şəhərində verdiyi konsertdə "Rast" muğamında təsnifləri zildə və bəmdə oxuduqdan sonra amerikalı nümayəndələr səhnə arxasına keçərək müğənnidən iki müxtəlif səsdən necə istifadə etməsi barədə soruşmuş və Azərbaycan musiqisinin onlara qeyri-adi təsir bağışladığını qeyd etmişlər.

Arif Babayev Qərbi Avropada olduğu qasrol səfərləri haqda belə deyir: "Siz təsəvvürünüzə gətirirsinizmi Azərbaycan xalq musiqisini Fransada, İtaliyada, İsveçrədə, İslandiyada necə qarşılayırdılar... Xalq artisti Habil Əliyevlə Paris səhnəsində düz 45 dəqiqə oxuyub-çalmışıq. İki min adam ayaq üstə durub bizə əl çalıb. Habillə səhnədə dayanıb bir-birimizin üzünə baxırdıq, fərəhdən, həyəcandan gözlərimiz dolurdu. Buna oxşar hadisə İtaliyada, İsveçrədə də təkrar olub. Hətta bir sənətşünas qız Habilin kamanını əlinə aldı. Onu gah o üzə, gah bu üzə çevirdi. Əcnəbi sənətşünas Habil Əliyevin kamanının tədqiq eyləyib qurtardıqdan sonra mənim boğazıma baxdı və başını buladı"[27].

Arif Babyev 1988-ci ilin mart ayında ABŞ-da qastrol səfərində

---

[27] Quliyeva Z. Muğamın Arif Babayev zirvəsi. // "Azərbaycan" qəzeti, 17 fevral 2008, s. 8.

olmuş, dünya musiqi incəsənətinin ən görkəmli nümayəndələrini əlvan konsert proqramı ilə heyran qoymuşdur.

Sənətkar ABŞ-da olan qastrol səfəri haqda öz təəssüratlarını belə söyləyir: "Nyu-Yorka düşən kimi birbaşa Ohayo ştatının Sinsinati şəhərinə gəldik. Burada "SSRİ – İnsan-ailə-cəmiyyət" sərgisi keçirilirdi. Biz sərgiyə gələnlər üçün konsert verməli idik. Sənət dostlarımdan xalq artisti Zeynəb xanım Xanlarova, respublikanın xalq artisti Polad Bülbüloğlunun çıxışları böyük rəğbətlə, gurultulu alqışlarla qarşılanırdı. Mən tamaşaçıların ovqatına uyğun təsnif, xalq mahnıları ifa edirdim. Sərgi bütün günü işləyir və həmişə tamaşaçılarla dolu olurdu. Ona görə də üç və hətta bəzən dörd konsert verməli olurduq. Konsertdən sonra tamaşaçılar kollektivimizi dövrəyə alır, bizimlə şəkil çəkdirirdilər. Respublikamız, milli musiqimiz, onun inkişafı haqda çoxlu suallar verir, çalğı alətlərimizlə yaxından maraqlanırdılar"[28].

Xanəndə qastrol səfərində olarkən, təkcə konsert verməklə işini bitmiş hesab etmirdi. O, digər xanəndələr və musiqiçilərlə birgə həmvətənləri ilə görüş keçirir, mədəni kütləvi tədbirlərdə iştirak edirdilər. Belə görüşlərdən biri də Los-Anjelesdəki "Qafqaz" rəqs ansamblı ilə olmuşdur. Xanəndə görüş haqqında xatırlayarkən bu haqda böyük fərəh hissi ilə belə deyir: "Təssəvür edirsiniz bu ansamblda oynayanların əksəriyyəti ingilis qızları idi. Ansamblın repertuarı isə Azərbaycanın oynaq, təravətli havalarından ibarət idi. Tamamilə yad bir musiqi mədəniyyətindən uzaq olsalar da çox gözəl rəqs edirdilər. Bu bizim üçün böyük fəxr idi. Azərbaycan musiqisi başqa dövlətin nümayəndələri tərəfindən ifa olunurdu. Onların ifasını izlədikcə mənimlə bərabər, bütün sənət dostlarımın gözləri dolmuşdu"[29].

Ustad xanəndə Arif Babayevin çıxışları istər respublikamızda, istərsə də respublikamızın hüdudlarından kənarda bu günə qədər hər zaman böyük alqışlarla qarşılanmışdır. Onun ifa etdiyi mu-

---

[28]Qaraqızı U. Arif Babayev: Nə qədər sağam, xalq musiqisinin təbliği ilə məşğul olacağam. // "Ekspress" qəzeti, 26 aprel 2001, s. 18.
[29]Tahirli A.// "Odlar yurdu" qəzeti. 5 avqust.

ğamlar, xalq və bəstəkar mahnıları, təsniflər xalqın mənəvi sərvətinə çevrilmiş, səsi isə musiqimizin qızıl fonduna daxil olmuşdur.

Beləlikə, bütün dediklərimizi ümumiləşdirərək qeyd etmək istərdik ki, 80 yaşın astanasında olan, ömrünü muğam sənətinə bağlamış ustad sənətkarımızın arzuları, tövsiyələri, nəsihətləri milli musiqimizin inkişafına işıq sacacaq, onun zamanın sınağından çıxan sənəti isə gələcək musiqiçilər üçün məktəb olacaqdır. Fikirlərimizi Heydər Əliyevin müdrik kəlamları ilə bitirmək istərdik: "Xalqını, onun ədəbiyyatını, mədəniyyətini, incəsənətini, dilini sevən hər bir şəxs, harada olursa-olsun, xalqının ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin, dilinin inkişafına, millətinin tərəqqisinə çalışmalıdır". Bütün ömrünü Azərbaycan mədəniyyətinin tərəqqisinə həsr edən Arif Babayev şəxsiyyətinin həyat salnaməsi hər birimiz üçün örnək, nümunə olmuş və olacaqdır.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. Abbasoğlu B. (Hətəmli). Muğam çeşməsi. Mingəçevir: 2013, 288 s.
2. Abduləliyev A.Ə. Milli musiqi irsimizi zənginləşdirən qüdrətli sənətkar. // “Mədəniyyət” qəzeti, 23 noyabr 2012, s. 7.
3. Abdullayev A. Milli musiqi irsini zənginləşdirən qüdrətli sənəkar. // “Mədəniyyət” qəzeti, 1 mart 2014, səh.7
4. Allahverdiyev E. Səs sərvətimiz: Azərbaycan Radiosunun “qızıl fondu”. // “Mədəniyyət” qəzeti, 5 noyabr 2010, s. 11.
5. Arif Babayev – 70. Mətni hazırlayan: Çəmənli M. B.: 2008, 88s.
6. “Azərbaycan” qəzeti. 13 mart 2008, s.7
7. Bakıxanov Ə.M. Ömrün sarı simi. (Məqalələr və xatirələr). Tərtibçilər: Tofiq Bakıxanov və Məmmədrza Bakıxanov. B.: İşıq, 1985, 80 s.
8. Babayev E.Ə. Azərbaycan muğam dəstgahlarında ritm-intonasiya problemləri. B.: Ergün, 1996, 128 s.
9. Babayev E.Ə. Ənənəvi musiqimiz. (Müşahidələr və mülahizələr). B.: Elm, 2000, 116 s.
10. Bədəlbəyli Ə.B. İzahlı monoqrafik musiqi lüğəti. B.: Elm, 1969, 248 s.
11. Cəfərzadə Əkrəm (Əkrəm Cəfər). Əruzun nəzəri əsasları və Azərbaycan əruzu (ərəb, fars, tacik, türk və özbək əruzları ilə müqayisədə). B.: Elm, 1977, 417 s.
12. Əfəndiyeva R.Ş. Vətəndir Arifin səsi. B.: Adiloğlu, Nurlan, 2006, 192 s.
13. Əhmədov Ə.A. Müasir dövrdə Azərbaycanda xanəndəlik sənətinin inkişafı (1960-2010-cu illər). Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. B.: 2017, 26 s.
14. Əhmədov Ə.A. Arif Babayevin təsnif yaradıcılığı. //“Konservatoriya”, 2017 №2 (36), səh.4-12

15. Fərzəliyeva Ü. Arif Babayev:“Savadlı həkimlər cəmiyyət üçün ən sevimli insanlardır”. “Tibb qəzeti”, 31 yanvar 2012, s.13
16. Hacıbəyov Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları. B.: Elm, 1985, 154 s.
17. Həsənova C.İ. Qarabağ xanəndələri layihəsi. // “Musiqi dünyası” jurnalı, 2005, №1-2 /23, s.25.
18. Həsənova C.İ. Arif Babayev – 70. // “Musiqi dünyası” jurnalı. 2008, №1-2/35, s.131-132.
19. Hidayətqızı S. Muğam qəsri. B.: Apostrof, 2016, 576 s.
20. İbrahimov M. Xalq musiqisinin çırpınan ürəyi – Seyid Şuşinski. // “Konservatoriya” jurnalı, 2013, №3 (21) , s. 122-128.
21. İmrani R.H. Muğam tarixi. I c. B.: Elm, 1998, 280 s.
22. İsmayılov M.C. Azərbaycan xalq musiqisinin məqam və muğam nəzəriyyəsinə dair elmi-metodik oçerklər. B.: Elm, 1991, 120 s.
23. Qaraqızı U. Arif Babayev: Nə qədər sağam, xalq musiqisinin təbliği ilə məşğul olacağam. // “Ekspress” qəzeti, 26 aprel 2001, s.18.
24. Quliyev M.B. Muğam ənənəsində ifaçılıq məsələləri. B.: MBM, 2013, 140 s.
25. Quliyev M.B., Nəcəfzadə A.İ. Xalq musiqisi sazəndə ifaçılığında. Dərs vəsaiti. B.: MBM, 2013, 84s.
26. Quliyeva Z. Muğamın Arif Babayev zirvəsi. // “Azərbaycan” qəzeti, 17 fevral 2008, s.8
27. Ağayev Yusif. Arif dünyası.“Mədəniyyət” qəzeti, 20 fevral 2013, s.11
28. Musayev P. Qarabağ xanəndəlik ənənəsinin Azərbaycan musiqi mədəniyyətinin inkişafında rolu. Sənətşünaslıq namizədi elm.... Avtoreferatı . B.: 2004
29. Musazadə R.M., Abdullayev A.S., Dadaşov F.Ə. İnstrumental muğam sərgisi. B.: 2014, 219 s.
30. Nəcəfzadə A.İ., Məmmədəliyev V.M. Muğam. Ali musiqi məktəbləri üçün dərs vəsaiti. B.:Ecoprint, 2017, 160 s.
31. Rəhimli İ.Ə. Segah yanğısı. B.: İşıq, 1991, 156 s.
32. Şuşinski F.M. Cabbar Qaryağdıoğlu. B.: İşıq, 1987, 128 s.

33. Şuşinski F.M. Azərbaycan xalq musiqiçiləri. B.: Yazıçı, 1985, 478 s.
34. Tahirli A.// “Odlar yurdu” qəzeti, 5 avqust.
35. Təhmirazqızı S. Sənət sevgisi mənimlə birgə doğulub. “Mədəniyyət” qəzeti, 19 fevral 2016, s.10.
36. Fərzəliyeva Ü. Arif Babayev:“Savadlı həkimlər cəmiyyət üçün ən sevimli insanlardır”. “Tibb qəzeti”, 31 yanvar 2012, s.13
37. Vahabzadə B.M. Muğam poeması. B.: Gənclik, 1977, 174 s.
38. Verdiyeva S.S. Azərbaycan xanəndəlik sənətinin inkişafında İslam Rzayevin rolu. Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işi. B.: BMA-nın kitabxanası, 2016, 156 s.
39. Zöhrabov R.F.. Azərbaycan təsnifləri». // Azərbaycan xalq musiqisi (oçerklər). B.: Elm, 1981, s.87-167 (197 s.)
40. Zöhrabov R.F. Azərbaycan muğamları. B.: Təhsil, 2013, 336s.

## Saytoqrafiya

1. https://www.trend.az/life/interview/2121892.html
2. http://anl.az/down/medeniyyet2008/mart/medeniyyet2008_mart_248.htm
3. https://news.day.az/culture/557767.html
4. http://kepeztv.az/news/id/10727
5. http://konservatoriya.az/lib/Konservatoriya%202017-2.pdf
6. *Eşqin Zahid.* http://kepeztv.az/news/id/10727

## Notoqrafiya

1. Arif Babayevin mahnı və təsnifləri. Tərtib edən M.Quliyev. B.: Təhsil, 2012, s. 72.

## MÜNDƏRİCAT

Giriş ........................................................................................ 4

Arif Babayevin yaradıcılıq yolu.................................................... 6

Arif Babayevin opera fəaliyyəti.................................................. 20

Muğam ifaçılığı............................................................................ 27

Təsnif yaradıcılığı ........................................................................ 45

Pedaqoji fəaliyyəti ...................................................................... 69

Muğamın dünya səhnələrində təbliğində Arif Babayevin rolu... 79

İstifadə edilmiş ədəbiyyat ........................................................... 84

**Verdiyeva S.S., Qulamova J.E.**

**Azərbaycan xanəndəlik sənəti tarixində Arif Babayevin rolu**

*Dərs vəasiti*

Bakı, “Ecoprint”, 2018, 88 s.

Naşir: Ceyhun Əliyev
Dizayner: İradə Əhmədova
Texniki redaktor: Ülvi Arif

Yığılmağa verilmişdir: 25.12.2017
Çapa imzalanmışdır: 29.01.2018
Ş.ç.v. 5,5. Tiraj 100.
"Ecoprint" nəşriyyatının
mətbəəsində çap olunmuşdur.
Tel.: +994 55 216 09 91